TƏKRARSIĞORTA — REINSURANCE

# FƏALİYYƏT HESABATI

## 2025

**"AzRe Təkrarsığorta" ASC**

Fəaliyyət Hesabatı 2025

***Hesabatın xülasəsi*** ... 2
***A. Təkrarsığortaçının institusional fəaliyyəti və biznes əməliyyatlarının nəticələri*** ... 6
*A.1. Təkrarsığortaçının institusional fəaliyyəti ilə bağlı məlumatlar* ... 6
*A.2. Biznes əməliyyatlarının nəticələri ilə bağlı məlumatlar* ... 9
*A.3. İnvestisiya fəaliyyəti ilə bağlı məlumatlar* ... 13
*A.4. Əsas maliyyə göstəriciləri* ... 14
*A.5. Sığorta fəaliyyətinə aid olmayan digər əhəmiyyətli gəlir və xərc məlumatları* ... 15
*A.6. Digər əhəmiyyətli məlumatlar* ... 15
***B. Korporativ idarəetmə çərçivəsi*** ... 16
*B.2. Daxili nəzarət sistemi ilə bağlı məlumatlar* ... 18
*B.3. Daxili audit funksiyası ilə bağlı məlumatlar* ... 20
*B.4. Aktuar funksiyası ilə bağlı məlumatlar* ... 21
*B.5. Risklərin idarə edilməsi sistemi ilə bağlı məlumatlar* ... 22
*B.6. Autsorsinq ilə bağlı məlumatlar* ... 23
*B.7. Digər əhəmiyyətli məlumatlar* ... 24
***C. Aktivlərin və öhdəliklərin təsnifatı*** ... 25
*C.1. Aktivlər* ... 25
*C.2. Öhdəliklər* ... 26
*C.3. Sığorta ehtiyatları* ... 27
*C.4. Digər əhəmiyyətli məlumatları* ... 29
***D. Kapitalın idarə edilməsi*** ... 30
*D.1. Balans kapitalı* ... 30
*D.2. Məcmu kapital, tələb olunan kapital, ödəmə qabiliyyətinin tələb olunan səviyyəsi* ... 31
*D.3. Digər əhəmiyyətli məlumatlar* ... 31
***F. Əlavə məlumatlar*** ... 32

# Hesabatın xülasəsi

## Təkrarsığortaçının institusional fəaliyyəti və biznes əməliyyatlarının nəticələri

2025-ci hesabat ili ərzində "AzRe Təkrarsığorta" ASC fəaliyyətini uğurla davam etdirərək həm institusional inkişaf, həm də biznes əməliyyatlarının nəticələri baxımından müsbət və dayanıqlı artım dinamikası nümayiş etdirmişdir. Cəmiyyət Azərbaycan Respublikasında fəaliyyət göstərən yeganə yerli ixtisaslaşmış təkrarsığorta şirkəti olaraq yerli və beynəlxalq bazarlarda öz strateji mövqeyini daha da möhkəmləndirmişdir. Şirkətin fəaliyyəti risklərin effektiv idarə olunması, portfelin diversifikasiyası və davamlı gəlirliliyin təmin olunması prinsipləri əsasında qurulmuşdur.

Hesabat dövründə Cəmiyyət əsasən qeyri-həyat sığortası sinifləri üzrə təkrarsığorta əməliyyatlarını genişləndirmiş, xüsusilə əmlak, su nəqliyyatı, məsuliyyət və kənd təsərrüfatı riskləri üzrə portfelin həcmini artırmışdır.

Cəmiyyətin 50%-lik iştirak payı ilə Qala Həyat Sığorta ASC üzərində əhəmiyyətli nəzarəti mövcuddur və həmin qurum Cəmiyyətin törəmə şirkəti kimi fəaliyyət göstərir.

Cəmiyyətin strateji inkişaf siyasəti uzunmüddətli perspektivdə regional və beynəlxalq bazarlarda rəqabətqabiliyyətli mövqeyin gücləndirilməsinə yönəlmişdir. AzRe-nin strateji baxışı qlobal miqyasda tanınan, yüksək reytinqə malik, dayanıqlı və ilk seçim olunan təkrarsığortaçı olmaqdır. Bu istiqamətdə risklərin effektiv idarə olunması, korporativ idarəetmənin təkmilləşdirilməsi, rəqəmsallaşma, əməliyyat səmərəliliyinin artırılması və insan kapitalının inkişafı əsas prioritetlər kimi müəyyən edilmişdir. Eyni zamanda, müştəri yönümlü xidmət modeli və beynəlxalq tərəfdaşlıq şəbəkəsinin genişləndirilməsi strateji hədəflər sırasında yer almışdır.

2025-ci il üzrə AM Best tərəfindən aparılmış qiymətləndirməyə əsasən, Cəmiyyətin maliyyə dayanıqlılığı B++ (Good), uzunmüddətli emitent kredit reytinqi isə bbb (Good) səviyyəsində təsdiqlənmiş, reytinq proqnozu "Stable" olaraq saxlanılmışdır

Maliyyə nəticələrinə əsasən, 2026-cı ilin 01 yanvar tarixinə ümumi gəlirlər 97.14 milyon manat təşkil etmiş və əvvəlki illə müqayisədə artım dinamikasını davam etdirmişdir. Əsas əməliyyat gəlirlərində əhəmiyyətli artım qeydə alınmış, bu isə şirkətin biznes həcminin genişlənməsi və portfel aktivliyinin güclənməsi ilə əlaqədardır. İnvestisiya gəlirlərində isə azalma müşahidə olunmuşdur ki, bu da əvvəlki dövrdə formalaşmış dividend gəlirləri və səhmlərin satışından əldə edilən birdəfəlik gəlirin təsiri ilə izah olunur. Buna baxmayaraq, sığorta əməliyyatları üzrə gəlirlilik göstəriciləri artımını davam etdirmişdir.

Hesabat dövründə sığorta ehtiyatlarının həcmi artmış, bu isə portfelin genişlənməsi və gələcək öhdəliklərin daha konservativ və ehtiyatlı qiymətləndirilməsi ilə bağlı

olmuşdur. Eyni zamanda əməliyyat və inzibati xərclərdə artım qeydə alınsa da, bu artım şirkətin fəaliyyət miqyasının genişlənməsi və biznes inkişafı ilə əlaqələndirilir. Bütün bunlara baxmayaraq, Cəmiyyət yüksək gəlirlilik səviyyəsini və maliyyə dayanıqlığını qoruyub saxlamışdır.

Ümumilikdə, hesabat dövrünün nəticələri "AzRe Təkrarsığorta" ASC-nin əsas fəaliyyət istiqamətləri üzrə davamlı və güclü inkişaf nümayiş etdirdiyini, yerli bazarda lider mövqeyini möhkəmləndirdiyini və beynəlxalq fəaliyyətini mərhələli şəkildə genişləndirdiyini göstərir. Şirkət həm maliyyə sabitliyi, həm də strateji inkişaf baxımından dayanıqlı artım trayektoriyasını qorumaqda davam etmişdir.

### Korporativ idarəetmə çərçivəsi

Cəmiyyətin korporativ idarəetməsi "üç pilləli müdafiə xətti" modeli üzrə qurulmuşdur və şəffaflıq, hesabatlılıq, eləcə də risk əsaslı qərarvermə prinsiplərini dəstəkləyir. Direktorlar Şurası strategiya, investisiya, təkrarsığorta və risklərin idarəetmə siyasətlərini, risk iştahası bəyannaməsini, habelə daxili nəzarət qaydalarını təsdiq edir və nəzarət funksiyalarının effektivliyini illik qiymətləndirir. İdarə Heyəti strateji planın icrasını təmin edir, risk iştahası və daxili siyasətləri formalaşdırır və adekvat risk nəzarət mexanizmlərini tətbiq edir.

İkinci müdafiə xəttində Risklərin İdarə Edilməsi funksiyası risklərin identifikasiyası, ölçülməsi, limit və göstəricilərin monitorinqi ilə idarəetməni dəstəkləyir; Aktuar funksiyası ehtiyatların adekvatlığını qiymətləndirir və tarif, anderraytinq və təkrarsığorta üzrə rəylər verir; Komplayens funksiyası qanunvericiliyə uyğunluğu, daxili prosedurların icrasını, təlim və hesabatlılığı təmin edir. Üçüncü müdafiə xətti olan Daxili Audit Direktorlar Şurasına və İdarə Heyətinə müstəqil qiymətləndirmə təqdim edir və risk-əsaslı illik plan əsasında nəzarət sistemlərinin effektivliyini yoxlayır. Audit Komitəsi uçot siyasəti, maliyyə hesabatlarının şəffaflığı və daxili audit planının icrasına nəzarəti həyata keçirir, Riskləri İdarəetmə Komitəsi isə risk iştahası, limitlər və risk mədəniyyəti üzrə Direktorlar Şurasına hesabat verir; qəbul edilən qərarlar Cəmiyyət daxilində icbari xarakter daşıyır.

Daxili nəzarət sistemi fəaliyyət səmərəliliyini, etibarlı hesabatlılığı və normativ uyğunluğu təmin edən kompleks mexanizmdir; funksiyalar təşkilati və funksional müstəqillik əsasında ayrılmış, maraqlar toqquşmasının qarşısı alınmışdır. Komplayens normativ dəyişiklikləri izləyir və uyğunluq risklərini idarə edir, Aktuar portfelin dayanıqlığı üçün kəmiyyət analizləri aparır, Daxili Audit isə peşəkar standartlara əsaslanaraq faktlara dayalı nəticələr təqdim edir və tövsiyələrin icrasını izləyir.

Risklərin idarə olunması sistemi sığorta, bazar, kredit, likvidlik, əməliyyat, strateji və reputasiya risklərini əhatə edir; identifikasiya–ölçmə–qiymətləndirmə–monitorinq–azaltma ardıcıllığı, limitlər, erkən indikatorlar və stresstestlər vasitəsilə idarə olunur, qərarvermə proseslərinə inteqrasiya edilir və funksiya Baş Risk İnzibatçısına tabedir.

Autsorsinq siyasəti çərçivəsində İT texniki dəstək, informasiya təhlükəsizliyi, server və kompüter dəstəyi, şəbəkə xidməti, istifadəçi köməyi, domen və email, eləcə də ehtiyat nüsxələr üzrə xidmətlər üçün üçüncü tərəflərlə müqavilələr mövcuddur; bu müqavilələr məxfilik, məlumatların qorunması, xidmət səviyyələri və audit hüquqlarını ehtiva edir və xidmət keyfiyyəti davamlı monitorinq olunur.

### Aktivlərin və öhdəliklərin təsnifatı

Hesabat tarixinə aktivlərin təhlili göstərir ki, Cəmiyyət aktiv bazasını geniş-ləndirərək maliyyə resurslarının idarə edilməsində dayanıqlı mövqeyini qorumuşdur. Ümumi aktivlər əvvəlki hesabat dövrü ilə müqayisədə 33.98 milyon manat artaraq 202.43 milyon manat təşkil etmişdir. Bu artım əsasən fəaliyyət həcminin genişlənməsi və maliyyə imkanlarının yüksəlməsi ilə bağlıdır.

Dövr ərzində artımın əsas hissəsi investisiya aktivləri hesabına formalaşmışdır. İnvestisiya portfelindəki mühüm yüksəliş istiqrazlar, səhmlər və depozitlər üzrə müşahidə olunur ki, bu da sərbəst vəsaitlərin daha gəlirli və diversifikasiya olunmuş alətlərə yönəldildiyini göstərir.

Pul vəsaitləri və ekvivalentləri sabit səviyyədə qalmış, valyuta strukturunda isə əsaslı dəyişiklik qeydə alınmamışdır. Debitor borclarında isə təkrarsığorta üzrə artım, digər debitorlar üzrə azalma müşahidə olunmuşdur ki, bu da təkrarsığorta əməliyyatlarının genişlənməsi və digər hesablaşmaların daha səmərəli idarə olunması ilə izah edilir.

Aktivlərin qiymətləndirilməsində ehtiyatlılıq və ardıcıllıq prinsipləri tətbiq edilmiş, aktivlər müvafiq uçot qaydalarına uyğun şəkildə tanınmışdır.

Ümumilikdə, aktivlərin artımı və investisiya portfelinin genişlənməsi Cəmiyyətin maliyyə dayanıqlığının gücləndiyini və inkişaf üçün möhkəm baza formalaşdırdığını göstərir.

Hesabat tarixinə öhdəliklər əvvəlki dövrlə müqayisədə 17.46 milyon manat artaraq 95 milyon manat təşkil etmişdir. Artım əsasən sığorta ehtiyatlarının əhəmiyyətli dərəcədə artması ilə bağlıdır.

Kreditor borcları isə ötən dövrlə müqayisədə kəskin azalmışdır. Bu azalma əsasən təkrarsığorta üzrə hesablaşmaların optimallaşdırılması nəticəsində formalaşmışdır və maliyyə intizamının gücləndiyini göstərir.

Öhdəliklərin qiymətləndirilməsində ehtiyatlılıq və tam tanınma prinsipləri əsas götürülmüş, sığorta ehtiyatları mövcud portfel və gözlənilən zərərlər nəzərə alınmaqla formalaşdırılmışdır.

Ümumilikdə, öhdəliklərdəki dəyişikliklər maliyyə dayanıqlığının qorunmasını və risklərin balanslı idarə olunmasını əks etdirir.

## Kapitalın idarə edilməsi

01.01.2026-cı il hesabat dövrü üzrə balans kapitalının təhlili göstərir ki, şirkət ümumi kapitalını əvvəlki illə müqayisədə 16,52 milyon manat artıraraq 107,4 milyon manata çatdırmış və maliyyə dayanıqlığını qorumuşdur.

Nizamnamə kapitalı dəyişməz qalaraq sabit strukturun qorunmasını təmin etmişdir. Şirkət əlavə vəsait cəlb etmədən, daxili resurslar hesabına mövqeyini gücləndirmişdir ki, bu da idarəetmənin effektivliyini əks etdirir.

Ümumilikdə, balans kapitalının strukturundakı müsbət dəyişikliklər sığorta öhdəliklərini tam qarşılamaq imkanlarını genişləndirir.

Prudensial tənzimləmə çərçivəsində məcmu kapital əvvəlki illə müqayisədə 5,56 milyon manat artaraq 67,55 milyon manata çatmış və dayanıqlı mövqeyini qorumuşdur.

Hesabat dövründə tələb olunan kapitalın həcmində və ödəmə qabiliyyəti göstəricilərində sabitlik qorunmuşdur. Bu durum şirkətin riskləri ciddi nəzarətdə saxladığını və kapital bazasının real fəaliyyət həcmi ilə tam uzlaşdığını göstərir. Kapital buferinin yüksəlməsi təkrarsığortaçının prudensial normalardan artıq ehtiyata malik olduğunu və potensial kənar risklərə qarşı davamlılığını təsdiqləyir. Hesabat dövründə məcmu kapitalın tələb olunan kapitala nisbəti 319% təşkil etmişdir.

Hesabat dövrü ərzində məcmu kapitalın tələb olunan kapitalı təmin edə bilməməsi kimi hər hansı uyğunsuzluq halı baş verməmişdir. Güclü kapital mövqeyi sayəsində şirkətin ödəmə qabiliyyəti il ərzində etibarlı şəkildə təmin olunmuşdur.

## Hesabat dövrü ərzində qeydə alınmış əhəmiyyətli dəyişikliklər

Hesabat dövründə idarəetmənin səmərəliliyini və normativ tələblərə uyğunluğu gücləndirmək məqsədilə Risklərin idarə edilməsi, Aktuar nəzarət, Komplayens və İT təhlükəsizliyi şöbələri yaradılmış, əsasnamələr təsdiqlənmiş, səlahiyyətlər müəyyən-ləşdirilmiş və ixtisaslı heyət təyin edilərək fəaliyyətə başlanmışdır. Paralel olaraq daxili hesabatlılıq və koordinasiya mexanizmləri tətbiq edilmiş, bu isə dayanıqlığın və operativ qərarvermə imkanlarının yüksəlməsinə səbəb olmuşdur.

Hesabat dövründə İdarə Heyətinin bir üzvü ayrıldığından heyət müvəqqəti dörd nəfərlə fəaliyyət göstərmiş, üzv sayının tək olması tələbinə uyğunluğun növbəti hesabat dövründə bərpa edilməsi nəzərdə tutulub.

# A. Təkrarsığortaçının institusional fəaliyyəti və biznes əməliyyatlarının nəticələri

## A.1. Təkrarsığortaçının institusional fəaliyyəti ilə bağlı məlumatlar

### Təkrarığortaçı barədə məlumatlar

*"AzRe Təkrarsığorta" ASC Azərbaycan Respublikasında təkrarsığorta fəaliyyətini həyata keçirən yeganə yerli təkrarsığorta şirkətidir.*

- *Təşkilati-hüquqi forması: Açıq Səhmdar Cəmiyyəti (ASC);*
- *VÖEN: 2001093601;*
- *Hüquqi ünvan: AZ 1025, Bakı şəhəri, N. Rəfiyev küçəsi 22;*
- *Faktiki ünvan: AZ 1065, Bakı şəhəri, Bakıxanov küçəsi 24, Bridge Plaza, 8-ci mərtəbə;*
- *Təkrarsığorta fəaliyyətini həyata keçirməyə icazə verən lisenziyanın nömrəsi və tarixi: 1107-T31-4548, 10.10.2007.*

### Sirkətlər qrupu (holdinqin) barədə məlumatlar

*Cəmiyyətin 50%-lik iştirak payı ilə Qala Həyat Sığorta ASC üzərində əhəmiyyətli nəzarəti mövcuddur və həmin qurum Cəmiyyətin törəmə şirkəti kimi fəaliyyət göstərir.*

### Təkrarsığortaçının fəaliyyət göstərdiyi əsas sığorta sinifləri

Təkrarsığortaçı aşağıdakı əsas sığorta sinifləri üzrə fəaliyyət göstərir:

- əmlakın yanğından və digər risklərdən sığortası;
- kənd təsərrüfatı bitkiləri məhsullarının sığortası;
- ümumi mülki məsuliyyətin sığortası;
- daşınmaz əmlakın icbari sığortası;
- kənd təsərrüfatı heyvanlarının sığortası;
- su nəqliyyatı vasitələrinin sığortası;
- hava nəqliyyatı vasitələrinin sığortası;
- avtonəqliyyat vasitələrinin sığortası;
- yüklərin (nəqliyyat) sığortası;
- İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta;
- peşə məsuliyyətinin sığortası;
- həyatın ölüm halından sığortası;
- fərdi qəza və xəstəlik sığortası;

- işə götürənin məsuliyyət sığortası;
- hava nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası;
- avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası;
- işin dayanması ilə bağlı risklərdən sığorta.

## Yerli və xarici filial və nümayəndəlikləri, eləcə də törəmə cəmiyyətləri

*Təkrarsığortaçının yerli və xarici filial və nümayəndəlikləri yoxdur, eləcə də törəmə cəmiyyətləri mövcud deyil.*

## Yerli və xarici müstəqil auditorlar barədə məlumatlar

Cəmiyyətin 2025-ci hesabat ili üzrə yerli müstəqil auditor barədə məlumatlar:

- Auditorun adı: "Parker Russell Azerbaijan" MMC ("Parker Russell International"ın üzvü);
- Ünvanı: Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1065, Abbasqulu ağa Bakıxanov küçəsi, "HYATT Tower I", 3-cü mərtəbə;
- Telefon: +994 12 505-58-47,<br>+994 12 505-58-48,<br>+994 50 225-79-15;
- Elektron poçt (E-mail): office@cc.baku.az;
- İnternet səhifəsi (Website): www.caspian-consulting.com;
- Aparılan audit istiqaməti: "AzRe Təkrarsığorta" ASC-nin müvafiq dövr üzrə maliyyə hesabatlarının (əhəmiyyətli uçot siyasətinin qısa xülasəsi və digər izahedici qeydlər daxil olmaqla) Azərbaycan Respublikasının qanunvericiliyinə uyğunluğunun auditi.

Cəmiyyətin 2025-ci hesabat ili üzrə xarici müstəqil auditor barədə məlumatlar:

- Auditorun adı: "Baker Tilly Audit Azərbaycan" QSC;
- Ünvanı: Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1022, Cəlil Məmmədquluzadə küçəsi 102A, "City Point Baku", 9-cu mərtəbə;
- Telefon: +994 (12) 404-76-66;
- Elektron poçt (E-mail): office@bakertilly.az;
- İnternet səhifəsi (Website): www.bakertilly.az;
- Aparılan audit istiqaməti: 31 dekabr 2025-ci və 2026-cı il tarixlərində başa çatacaq illər üzrə MHBS (Maliyyə Hesabatlarının Beynəlxalq Standartları) Mühasibat Uçotu Standartlarına uyğun konsolidə edilmiş maliyyə hesabatlarının Beynəlxalq Audit Standartları əsasında auditi və yekun audit hesabatının hazırlanması.

## Səhmdarlar və onların iştirak payları barədə məlumatlar

Cəmiyyətin nizamnamə kapitalında müvafiq iştirak payına malik olan səhmdarları aşağıdakı fiziki şəxslərdir:

1. Səfərov Vəlihəd Məmmədağa oğlu – 200 səhm (10%)
2. Mirhadiyev Cavid Sənan oğlunun adından Yusifov Mehman Oqtay oğlu – 360 səhm (18%)
3. Yusifov Mehman Oqtay oğlu – 360 səhm (18%)
4. Tağıyev Əbülfət Məzahir oğlu – 360 səhm (18%)
5. Hətəmov Namiq İmdat oğlunun adından Aslanov Aslan Aslan oğlu – 360 səhm (18%)
6. Fərəcov İftixar Səftər oğlunun adından Sadıqov Rauf Ağahüseyn oğlu – 360 səhm (18%)

### Təkrarsığortaçının daxil olduğu şirkətlər qrupu (holdinq)

*"AzRe Təkrarsığorta" ASC müxtəlif sahələrdə fəaliyyət göstərən hər hansı şirkətlər qrupuna (holdinqə) daxil deyil.*

### Cəmiyyətin strateji baxışı

*Uzunmüddətli perspektivdə AzRe Təkrarsığorta ASC, qlobal miqyasda risk iştahası çərçivəsində davamlı şəkildə böyüyən, A kateqoriyalı və ilk seçim olunan təkrarsığortaçı kimi mövqelənir. Şirkət Avropa, Yaxın Şərq və Mərkəzi Asiya regionlarında yüksək reytinqə malik, tanınmış Azərbaycan brendi olaraq fəaliyyət göstərir. AzRe müştəriləri üçün aparıcı strateji tərəfdaş kimi çıxış edərək ölkənin təkrarsığorta bazarında liderliyini qoruyur və gücləndirir, eyni zamanda müstəsna xidmət keyfiyyəti təqdim edən, səhmdarları üçün davamlı dəyər yaradan dayanıqlı və gəlirli biznes modelini təmin edir.*

### Cəmiyyətin missiyası

*AzRe-nin missiyası dörd əsas benefisiar üzərində fokuslanır:* müştərilər üçün - həm yerli, həm də qlobal səviyyədə sürətli və optimal təkrarsığorta həlli olmaq, bazar üçün - Azərbaycanın təkrarsığorta sektorunu ən yüksək beynəlxalq standartlara və qabaqcıl təcrübələrə çatdırmaq, əməkdaşlar üçün - peşəkar və cəlbedici iş mühiti yaratmaq və səhmdarlar üçün - dayanıqlı gəlir təmin etmək; reputasiya, etibar və brend identifikasiyası vasitəsilə qeyri-maddi dəyər yaratmaq - AzRe-nin maliyyə göstəricilərindən daha yüksək bazar dəyərinə malik bir şirkət kimi mövqeyini möhkəmləndirmək.

### Cəmiyyətin strateji hədəfi

*AzRe Təkrarsığorta ASC-nin strateji hədəfi beynəlxalq biznesini genişləndirərək və yerli bazarda lider mövqeyini möhkəmləndirərək davamlı və gəlirli inkişafı təmin etməkdir. Şirkət risklərin effektiv idarə olunması, güclü korporativ idarəetmə və modernləşdirilmiş sistemlər vasitəsilə daha çevik və rəqabətqabiliyyətli fəaliyyət modelinə keçidi hədəfləyir. Eyni zamanda insan kapitalının inkişafı, rəqəmsallaşma və əməliyyat səmərəliliyinin artırılması ilə uzunmüddətli dəyər yaradılmasının təmin edilməsi əsas məqsədlər sırasındadır.*

### Reytinq

*AM Best tərəfindən Cəmiyyət 2014-cü ildən etibarən qiymətləndirilməkdədir. Sonuncu dəfə 05 noyabr 2025-ci il tarixində təsdiqlənmiş reytinqlərə əsasən, AzRe Təkrarsığorta ASC-nin maliyyə dayanıqlılığı B++ (Good), uzunmüddətli emitent kredit reytinqi bbb (Good), reytinq perspektivi isə Stable səviyyəsində müəyyən edilmişdir.*

Cəmiyyətin reytinqi 2014-cü ildən etibarən AM Best tərəfindən qiymətləndirilməkdədir. Sonuncu dəfə 05 noyabr 2025-ci il tarixində təsdiqlənmiş reytinqlərə əsasən, AzRe Təkrarsığorta ASC-nin maliyyə dayanıqlılığı B++ (Good), uzunmüddətli emitent kredit reytinqi bbb (Good), reytinq proqnozu isə sabit (Stable) səviyyəsində müəyyən edilmişdir.

*Hesabat dövrü ərzində təkrarsığortaçının fəaliyyətində əhəmiyyətli dəyişikliklər və ya digər mühüm hadisələr baş verməmişdir.*

## A.2. Biznes əməliyyatlarının nəticələri ilə bağlı məlumatlar

Sığortaçının biznes əməliyyatlarının nəticələri ilə bağlı məlumatlar bir il əvvəlki hesabat tarixi ilə müqayisəli şəkildə aşağıdakı kimi olmuşdur.

**Sığortaçının biznes əməliyyatlarının ümumi nəticələri**

(manatla)

| | Hesabat dövrü: 01.01.2026 | Hesabat dövrü: 01.01.2025 | Fərq |
|---|---|---|---|
| **Gəlirlər, o cümlədən :** | **97 141 374** | **86 702 195** | **10 439 179** |
| Əsas əməliyyat gəlirləri | 112 461 162 | 85 796 274 | 26 664 888 |
| İnvestisiya gəlirləri | 10 768 373 | 16 010 509 | -5 242 136 |
| Xalis sığorta ehtiyatlarının dəyişməsi | -28 111 492 | -16 547 132 | -11 564 359 |
| Digər gəlirlər | 2 023 331 | 1 442 544 | 580 787 |
| **Xərclər, o cümlədən :** | **71 612 321** | **58 396 436** | **13 215 885** |
| Əsas əməliyyat xərcləri | 47 874 962 | 40 533 554 | 7 341 408 |
| İşlərin aparılması xərcləri | 21 707 367 | 15 927 059 | 5 780 308 |
| Digər xərclər | 2 029 992 | 1 935 824 | 94 168 |
| **Maliyyə mənfəəti/zərəri** | **25 529 053** | **28 305 759** | **-2 776 705** |
| **Mənfəət vergisi** | **4 692 047** | **4 063 438** | **628 608** |
| **Xalis mənfəət/zərər** | **20 837 007** | **24 242 320** | **-3 405 313** |

## Biznes əməliyyatlarının nəticəsi- qeyri həyat sığorta sahəsi

(manatla)

| Sığorta sinifləri | Hesabat dövrü: 01.01.2026 | | |
|---|---|---|---|
| | Hesablanmış sığorta haqları | Sığorta ödənişləri | Zərərlilik dərəcəsi |
| **Şəxsi sığortaya aid olan əsas sığorta sinifləri,o cümlədən :** | **388 465** | **91 586** | |
| fərdi qəza sığortası | 385 761 | 91 275 | 56.2 |
| tibbi sığorta | 0 | 0 | 0.0 |
| səfər sığortası | 2 704 | 311 | 43.9 |
| şəxsi sığortaya aid olan digər siniflər | 0 | 0 | |
| **Əmlak sığortaya aid olan əsas sığorta sinifləri,o cümlədən :** | **87 541 667** | **30 728 745** | |
| əmlakın yanğından və digər risklərdən sığortası | 53 205 861 | 12 712 943 | 68.6 |
| avtonəqliyyat vasitələrinin sığortası | 1 991 191 | 970 965 | 63.1 |
| dəmiryol nəqliyyatı vasitələrinin sığortası | 4 402 | | 6.9 |
| hava nəqliyyatı vasitələrinin sığortası | 2 978 867 | 740 795 | 87.5 |
| su nəqliyyatı vasitələrinin sığortası | 6 582 565 | 1 067 432 | 113.2 |
| yüklərin (nəqliyyat) sığortası | 1 192 859 | 155 491 | 28.9 |
| kənd təsərrüfatı bitkiləri məhsullarının sığortası | 14 815 811 | 11 967 322 | 140.5 |
| kənd təsərrüfatı heyvanlarının sığortası | 6 770 112 | 3 113 797 | 90.4 |
| əmlakın sığortası ilə bağlı digər siniflər | 0 | 0 | |
| işçilərin dələduzluğu sığortası | 0 | 0 | 0.0 |
| pul və pul sənədlərinin saxtalaşdırılmasından sığorta | 0 | 0 | 0.0 |
| titul sığortası | 0 | 0 | 0.0 |
| **Mülki məsuliyyətin sığortasına aid olan əsas sığorta sinifləri,o cümlədən :** | **11 874 615** | **21 103** | |
| avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | 175 703 | 2 820 | 23.2 |
| dəmiryol nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | | | 0.0 |
| hava nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | 214 608 | | 4.8 |
| su nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | | | 0.0 |
| yük daşıyanın mülki məsuliyyətinin sığortası | 0 | 0 | 0.0 |
| mülki-hüquqi müqavilə üzrə mülki məsuliyyətin sığortası | 0 | 0 | 0.0 |
| peşə məsuliyyətinin sığortası | 552 843 | | 23.5 |
| işəgötürənin məsuliyyət sığortası | 331 283 | | 17.9 |
| ümumi mülki məsuliyyətin sığortası | 10 600 178 | 18 283 | 39.6 |
| hüquqi xərclərin sığortası | 0 | 0 | 0.0 |
| mülki məsuliyyətin sığortası üzrə digər siniflər: | 0 | 0 | |
| **Digər sığorta sinifləri** | **9 916 212** | **517 462** | **14.8** |
| | | | |
| **Cəmi** | **109 720 959** | **31 358 895** | **75.5** |

*davamı*

| Sığorta sinifləri | Hesabat dövrü: 01.01.2025 | | |
|---|---|---|---|
| | Hesablanmış sığorta haqları | Sığorta ödənişləri | Zərərlilik dərəcəsi |
| **Şəxsi sığortaya aid olan əsas sığorta sinifləri,o cümlədən :** | **449 859** | **50 421** | |
| fərdi qəza sığortası | 448 620 | 50 208 | 32.2 |
| tibbi sığorta | 0 | 0 | 0.0 |
| səfər sığortası | 1 239 | 214 | 41.9 |
| şəxsi sığortaya aid olan digər siniflər | 0 | 0 | |
| **Əmlak sığortaya aid olan əsas sığorta sinifləri,o cümlədən :** | **70 763 059** | **19 908 922** | |
| əmlakın yanğından və digər risklərdən sığortası | 50 510 657 | 12 105 817 | 76.4 |
| avtonəqliyyat vasitələrinin sığortası | 1 807 627 | 1 665 191 | 77.9 |
| dəmiryol nəqliyyatı vasitələrinin sığortası | 40 027 | | 22.8 |
| hava nəqliyyatı vasitələrinin sığortası | 709 563 | 271 428 | 252.1 |
| su nəqliyyatı vasitələrinin sığortası | 865 574 | 245 793 | 59.9 |
| yüklərin (nəqliyyat) sığortası | 1 388 295 | 107 065 | 36.5 |
| kənd təsərrüfatı bitkiləri məhsullarının sığortası | 9 955 605 | 3 217 138 | 70.8 |
| kənd təsərrüfatı heyvanlarının sığortası | 5 485 711 | 2 296 491 | 83.1 |
| əmlakın sığortası ilə bağlı digər siniflər | 0 | 0 | |
| işçilərin dələduzluğu sığortası | 0 | 0 | 0.0 |
| pul və pul sənədlərinin saxtalaşdırılmasından sığorta | 0 | 0 | 0.0 |
| titul sığortası | 0 | 0 | 0.0 |
| **Mülki məsuliyyətin sığortasına aid olan əsas sığorta sinifləri,o cümlədən :** | **2 638 032** | **19 079** | |
| avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | 164 360 | | 29.2 |
| dəmiryol nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | | | 0.0 |
| hava nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | 137 063 | 10 441 | 22.8 |
| su nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | | | 0.0 |
| yük daşıyanın mülki məsuliyyətinin sığortası | 0 | 0 | 0.0 |
| mülki-hüquqi müqavilə üzrə mülki məsuliyyətin sığortası | 0 | 0 | 0.0 |
| peşə məsuliyyətinin sığortası | 400 294 | | 28.0 |
| işəgötürənin məsuliyyət sığortası | 419 299 | | 28.1 |
| ümumi mülki məsuliyyətin sığortası | 1 517 015 | 8 638 | 30.6 |
| hüquqi xərclərin sığortası | 0 | 0 | 0.0 |
| mülki məsuliyyətin sığortası üzrə digər siniflər: | 0 | 0 | |
| **Digər sığorta sinifləri** | **10 539 810** | **892 105** | **28.7** |
| | | | |
| **Cəmi** | **84 390 760** | **20 870 527** | **70.0** |

*davamı*

| Sığorta sinifləri | Fərq | | |
|---|---|---|---|
| | Hesablanmış sığorta haqları | Sığorta ödənişləri | Zərərlilik dərəcəsi |
| **Şəxsi sığortaya aid olan əsas sığorta sinifləri,o cümlədən :** | **-61 394** | **41 164** | **0.0** |
| fərdi qəza sığortası | -62 859 | 41 067 | 24.0 |
| tibbi sığorta | 0 | 0 | 0.0 |
| səfər sığortası | 1 465 | 97 | 2.0 |
| şəxsi sığortaya aid olan digər siniflər | 0 | 0 | 0.0 |
| **Əmlak sığortaya aid olan əsas sığorta sinifləri,o cümlədən :** | **16 778 608** | **10 819 823** | **0.0** |
| əmlakın yanğından və digər risklərdən sığortası | 2 695 203 | 607 126 | -7.8 |
| avtonəqliyyat vasitələrinin sığortası | 183 564 | -694 225 | -14.8 |
| dəmiryol nəqliyyatı vasitələrinin sığortası | -35 625 | 0 | -15.9 |
| hava nəqliyyatı vasitələrinin sığortası | 2 269 304 | 469 367 | -164.6 |
| su nəqliyyatı vasitələrinin sığortası | 5 716 991 | 821 639 | 53.3 |
| yüklərin (nəqliyyat) sığortası | -195 436 | 48 426 | -7.6 |
| kənd təsərrüfatı bitkiləri məhsullarının sığortası | 4 860 206 | 8 750 185 | 69.7 |
| kənd təsərrüfatı heyvanlarının sığortası | 1 284 401 | 817 307 | 7.3 |
| əmlakın sığortası ilə bağlı digər siniflər | 0 | 0 | 0.0 |
| işçilərin dələduzluğu sığortası | 0 | 0 | 0.0 |
| pul və pul sənədlərinin saxtalaşdırılmasından sığorta | 0 | 0 | 0.0 |
| titul sığortası | 0 | 0 | 0.0 |
| **Mülki məsuliyyətin sığortasına aid olan əsas sığorta sinifləri,o cümlədən :** | **9 236 583** | **2 023** | **0.0** |
| avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | 11 343 | 0 | -6.0 |
| dəmiryol nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | 0 | 0 | 0.0 |
| hava nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | 77 545 | 0 | -18.0 |
| su nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | 0 | 0 | 0.0 |
| yük daşıyanın mülki məsuliyyətinin sığortası | 0 | 0 | 0.0 |
| mülki-hüquqi müqavilə üzrə mülki məsuliyyətin sığortası | 0 | 0 | 0.0 |
| peşə məsuliyyətinin sığortası | 152 549 | 0 | -4.5 |
| işəgötürənin məsuliyyət sığortası | -88 017 | 0 | -10.2 |
| ümumi mülki məsuliyyətin sığortası | 9 083 163 | 9 645 | 9.0 |
| hüquqi xərclərin sığortası | 0 | 0 | 0.0 |
| mülki məsuliyyətin sığortası üzrə digər siniflər: | 0 | 0 | 0.0 |
| **Digər sığorta sinifləri** | **-623 598** | **-374 643** | **-13.9** |
| | | | |
| **Cəmi** | **25 330 199** | **10 488 368** | **5.5** |

**Biznes əməliyyatlarının nəticəsi- həyat sığorta sahəsi**

(manatla)

| Sığorta sinifləri | Hesabat dövrü: 01.01.2026 | | Hesabat dövrü: 01.01.2025 | | Fərq | |
|---|---|---|---|---|---|---|
| | Sığorta haqları | Sığorta ödənişləri | Sığorta haqları | Sığorta ödənişləri | Sığorta haqları | Sığorta ödənişləri |
| **Əsas sığorta sinifləri** | **431 225** | **155 626** | **181 819** | **0** | **249 406** | **155 626** |
| həyatın ölüm halından sığortası | 431 225 | 155 626 | 181 819 | 0 | 249 406 | 155 626 |
| həyatın yaşam sığortası | | | **0** | **0** | **0** | **0** |
| annuitet sığortası | 0 | 0 | 0 | 0 | 0 | 0 |
| əmək qabiliyyətinin sığortası | | | **0** | **0** | **0** | **0** |
| sağalmaz xəstəliklərdən sığorta | 0 | 0 | 0 | 0 | 0 | 0 |
| **Digər sığorta sinifləri** | **736 602** | **30 806** | **577 866** | **0** | **158 736** | **30 806** |
| | | | | | | |
| **Cəmi** | **1 167 827** | **186 431** | **759 685** | **0** | **408 143** | **186 431** |

## *A.3. İnvestisiya fəaliyyəti ilə bağlı məlumatlar*

Sığortaçının investisiya fəaliyyəti ilə bağlı məlumatlar bir il əvvəlki hesabat tarixi ilə müqayisəli şəkildə aşağıdakı kimi olmuşdur.

**İnvestisiya portfeli barədə məlumat**

(manatla)

| İnvestisiyalar | Hesabat dövrü: 01.01.2026 | Hesabat dövrü: 01.01.2025 | Fərq |
|---|---|---|---|
| **İstiqrazlar, o cümlədən :** | **110 390 176** | **98 269 325** | **12 120 850** |
| dövlət istiqrazları | 75 142 515 | 80 447 517 | -5 305 003 |
| qeyri-dövlət istiqrazları | 35 247 661 | 17 821 808 | 17 425 853 |
| **Səhmlər** | **13 106 245** | **9 797 141** | **3 309 104** |
| **İnvestisiya fondlarına yerləşdirilmiş aktivlər** | | | **0** |
| **Törəmə maliyyə aktivləri** | | | **0** |
| **Daşınmaz əmlaklar( öz istifadəsi üçün olmayan)** | | | **0** |
| **Depozitlər** | **13 100 000** | **250 000** | **12 850 000** |
| **Digər investisiyalar** | **13 760 043** | **0** | **13 760 043** |
| | | | |
| **Cəmi** | **150 356 464** | **108 316 466** | **42 039 998** |

## Xalis investisiya mənfəəti/zərəri barədə məlumat

(manatla)

| | İstiqrazlar | | Səhmlər | | Depozitlər | |
|---|---|---|---|---|---|---|
| | Hesabat dövrü: 01.01.2026 | Hesabat dövrü: 01.01.2025 | Hesabat dövrü: 01.01.2026 | Hesabat dövrü: 01.01.2025 | Hesabat dövrü: 01.01.2026 | Hesabat dövrü: 01.01.2025 |
| **Faiz/divident gəliri** | 7 283 494 | 5 647 049 | 2 375 000 | 7 438 713 | 1 072 772 | 349 511 |
| Reallaşdırılmış gəlir/xərc | | | | 2 562 667 | | |
| **Yenidənqiymətləndirmə** | | | | | | |
| İnvestisiya xərcləri | -45 848 | -55 317 | | -7 825 | | |
| **Xalis investisiya mənfəəti/zərəri** | 7 237 646 | 5 591 732 | 2 375 000 | 9 993 555 | 1 072 772 | 349 511 |

***davamı***

| | Daşınmaz əmlaklar | | Digər investisiyalar | | Cəmi | |
|---|---|---|---|---|---|---|
| | Hesabat dövrü: 01.01.2026 | Hesabat dövrü: 01.01.2025 | Hesabat dövrü: 01.01.2026 | Hesabat dövrü: 01.01.2025 | Hesabat dövrü: 01.01.2026 | Hesabat dövrü: 01.01.2025 |
| **Faiz/divident gəliri** | | | 37 107 | 12 569 | 10 768 373 | 13 447 843 |
| Reallaşdırılmış gəlir/xərc | | | | | 0 | 2 562 667 |
| **Yenidənqiymətləndirmə** | | | | | 0 | 0 |
| İnvestisiya xərcləri | | | | | -45 848 | -63 142 |
| **Xalis investisiya mənfəəti/zərəri** | 0 | 0 | 37 107 | 12 569 | 10 722 525 | 15 947 368 |

## *A.4. Əsas maliyyə göstəriciləri*

2026-cı ilin 01 yanvar tarixinə olan maliyyə nəticələri 2025-ci ilin eyni dövrü ilə müqayisədə şirkətin əməliyyat fəaliyyətində artım dinamikasının davam etdiyini göstərir. Hesabat dövründə ümumi gəlirlər 97.14 milyon manat təşkil etmiş və ötən illə müqayisədə 10.43 milyon manat və ya təxminən 12% artmışdır.

Əsas əməliyyat gəlirləri üzrə xüsusilə müsbət dinamika müşahidə olunmuşdur. Bu göstərici 85.79 milyon manatdan 112.46 milyon manata yüksələrək 26.66 milyon manat artım nümayiş etdirmişdir. Sözügedən artım şirkətin əsas fəaliyyət istiqamətləri üzrə əməliyyat həcmlərinin genişlənməsi və biznes aktivliyinin güclənməsi ilə əlaqədardır.

Bununla yanaşı, investisiya gəlirləri hesabat dövründə azalmışdır. İnvestisiya gəlirləri 16.01 milyon manatdan 10.76 milyon manata düşərək 5.25 milyon manat azalma göstərmişdir. Bu azalmanın əsas səbəbi əvvəlki hesabat dövründə Qala Həyat ASC-nin səhmlərinin 40%-nin satışından formalaşmış birdəfəlik gəlirlərin mövcud olması ilə bağlıdır.

Xalis sığorta ehtiyatlarının dəyişməsi göstəricisi üzrə də artım qeydə alınmışdır. Ehtiyatların dəyişməsi mənfi 16.54 milyon manatdan mənfi 28.11 milyon manata yüksəlmişdir ki, bu da 11.57 milyon manatlıq artım təşkil edir. Bu dinamika şirkətin sığorta portfelinin genişlənməsi, eləcə də gələcək öhdəliklərin daha ehtiyatlı və konservativ yanaşma əsasında qiymətləndirilməsi ilə əlaqədardır.

Xərclər hissəsində ümumi artım qeydə alınmışdır. Hesabat dövründə ümumi xərclər 58.4 milyon manatdan 71.6 milyon manata yüksəlmiş və 13.2 milyon manat artmışdır. Əsas

əməliyyat xərcləri 7.34 milyon manat artaraq 47.87 milyon manat təşkil etmişdir. İşlərin aparılması xərcləri isə 15.92 milyon manatdan 21.7 milyon manata yüksələrək 5.78 milyon manat artmışdır. Sözügedən artım şirkətin əməliyyat miqyasının genişlənməsi, inzibati fəaliyyətlərin artması və biznes inkişafı istiqamətində həyata keçirilmiş əlavə fəaliyyətlərlə bağlı olmuşdur.

Maliyyə nəticələrinə gəldikdə isə, hesabat dövründə şirkətin mənfəəti yüksək səviyyədə qalsa da, əvvəlki illə müqayisədə müəyyən azalma müşahidə edilmişdir. Maliyyə mənfəəti 28.30 milyon manatdan 25.52 milyon manata enmişdir. Xalis mənfəət isə 24.24 milyon manatdan 20.83 milyon manata düşərək 3.4 milyon manat azalmışdır. Bu azalma əsasən investisiya fəaliyyətindən əldə olunan gəlirlərin aşağı düşməsi ilə əlaqədar olmuşdur. 2024-cü ildə dividend gəlirləri və səhmlərin satışından əldə edilən birdəfəlik gəlirin təsirini nəzərə almasaq investisiya fəaliyyəti üzrə gəlirlərdə 1.85 milyon manat artıım olmuşdur.

Heabat dövründə investisiya gəlirləri istisna olmaqla sığorta fəaliyyəti üzrə əməliyyat nəticələrində müsbət artım müşahidə edilmişdir. Belə ki, əsas əməliyyat fəaliyyəti üzrə maliyyə nəticəsi 12.3 milyon manatdan 14.76 milyon manata yüksələrək təxminən 20% artım nümayiş etdirmişdir.

Ümumilikdə, hesabat nəticələri şirkətin əsas əməliyyat fəaliyyəti üzrə dayanıqlı və güclü artım nümayiş etdirdiyini göstərir. Bununla yanaşı, investisiya gəlirlərindəki azalma, sığorta ehtiyatlarının artımı və əməliyyat xərclərinin yüksəlməsi yekun mənfəət göstəricilərinə müəyyən təsir göstərmişdir.

## *A.5. Sığorta fəaliyyətinə aid olmayan digər əhəmiyyətli gəlir və xərc məlumatları*

Sığorta fəaliyyətinə aid olmayan digər gəlirlər üzrə isə müsbət artım müşahidə olunmuşdur. Göstərici 1.44 milyon manatdan 2.02 milyon manata yüksələrək 580.8 min manat artmışdır.

Yekun olaraq, şirkət hesabat dövründə də gəlirlilik səviyyəsini və maliyyə dayanıqlığını qoruyub saxlamışdır.

## *A.6. Digər əhəmiyyətli məlumatlar*

Hesabat dövrü üzrə sığortaçının institusional fəaliyyəti və biznes əməliyyatlarının nəticələri ilə bağlı əlavə açıqlanmasını tələb edən digər əhəmiyyətli məlumatlar olmamışdır.

# B. Korporativ idarəetmə çərçivəsi

## Təşkilati struktur




### Təkrarığortaçının korporativ idarəetmə və daxili nəzarət sisteminin əsas funksiyaları

*Cəmiyyətin ümumi rəhbərliyini və fəaliyyətinə nəzarəti həyata keçirən Direktorlar Şurası sığortaçının biznes strategiyasını, investisiya və təkrarsığorta siyasətlərini müəyyən və təsdiq edir. Direktorlar Şurası daxili nəzarət sistemini təşkil edən qayda və prosedurları təsdiqləyir, habelə nəzarət funksiyalarının və struktur bölmələrin fəaliyyətinin effektivliyini azı ildə bir dəfə qiymətləndirir.*

*Kollegial icra orqanı olan İdarə Heyəti təsdiq edilmiş strateji planın effektiv icrasını təmin edir və Cəmiyyətin cari əməliyyat fəaliyyətinə rəhbərlik edir. İdarə Heyəti risk iştahası bəyannaməsini, daxili siyasət və qaydaları hazırlayır, həmçinin risklərin adekvat şəkildə idarə olunması və monitorinqi üçün zəruri tədbirlər görür.*

*Birinci müdafiə xəttinin fəaliyyətinə nəzarət edən ikinci müdafiə xətti struktur bölmələrinə Risklərin İdarə Edilməsi, Komplayens və Aktuar funksiyaları daxildir.*

*Risklərin İdarəedilməsi funksiyası Cəmiyyətin məruz qaldığı kapital, underwriting, bazar, kredit və əməliyyat risklərini sistemli şəkildə müəyyən edir, qiymətləndirir və risk limitlərinin monitorinqini aparır.*

*Aktuar funksiyası sığorta ehtiyatlarının adekvatlığını qiymətləndirməyə, anderraytinq şərtləri ilə tariflərin müəyyən edilməsi və təkrarsığorta əməliyyatları üzrə siyasətlərə dair yekun məsləhət və tövsiyələr verməyə cavabdehdir.*

*Komplayens funksiyası Cəmiyyətin fəaliyyətinin qanunvericiliyə, daxili qaydalara və digər öhdəliklərə uyğunluğunu izləyir, həmçinin qərarvermə prosesində maraqlar münaqişəsini müəyyən edir.*

*Üçüncü müdafiə xəttini təşkil edən Daxili Audit funksiyası daxili nəzarət və risklərin idarə edilməsi sistemlərinin keyfiyyəti və effektivliyi ilə bağlı Direktorlar Şurasına və İdarə Heyətinə müstəqil qiymətləndirmə dəstəyi təmin edir. Müstəqil təşkilati vahid kimi fəaliyyət göstərən Daxili Audit funksiyası illik audit planı əsasında mühasibat uçotunun aparılmasını, maliyyə hesabatlarının etibarlılığını və xərclərin səmərəliliyini yoxlayır.*

## Təkrarsığortaçıda fəaliyyət göstərən komitələr

Cəmiyyətdə idarəetmənin effektivliyini artırmaq və risklərə nəzarəti gücləndirmək məqsədilə Direktorlar Şurası tərəfindən müvafiq komitələr yaradılır. Bu komitələr öz fəaliyyətində İdarə Heyətindən asılı deyil və birbaşa Direktorlar Şurası qarşısında hesabat verirlər. Sığortaçıda 2025-ci il ərzində əsasən iki struktur vahidi – Audit Komitəsi və Riskləri İdarəetmə Komitəsi fəaliyyət göstərmişdir.

Audit Komitəsinin əsas vəzifələrinə uçot siyasətinin təkmilləşdirilməsinə, maliyyə hesabatlarının şəffaflığına, habelə daxili audit planlarının icrasına nəzarət etmək daxildir. Bu komitənin tərkibi sədr Əlizadə Tokay Tahir oğlu, üzv Səfərov Vəlihəd Məmmədağa oğlu və müstəqil üzv Salamov Asim Ramiz oğlundan ibarətdir.

Riskləri İdarəetmə Komitəsi isə risk iştahası bəyannaməsinə, risk limitlərinə baxılmasına və risk mədəniyyətinin vəziyyətinə dair Direktorlar Şurasına hesabatların verilməsinə məsuldur. Riskləri İdarəetmə Komitəsinin tərkibinə sədr Salamov Asim Ramiz oğlu, üzv Əlizadə Tokay Tahir oğlu və müstəqil üzv Allahverdiyev Məmməd Ənvər daxildir. Ümumilikdə, komitələrin qəbul etdikləri qərarlar Cəmiyyət daxilində məcburi xarakter daşıyır.

## *Korporativ idarəetməsində baş vermiş əhəmiyyətli dəyişikliklər*

Hesabat dövründə sığortaçının korporativ idarəetməsində əhəmiyyətli dəyişikliklər baş vermişdir. Bu dəyişikliklər çərçivəsində idarəetmənin səmərəliliyini, şəffaflığını və

tənzimləyici tələblərə uyğunluğunu gücləndirmək məqsədilə aşağıdakı şöbələr formalaşdırılmışdır:

- Risklərin idarə edilməsi şöbəsi
- Aktuar nəzarət şöbəsi
- Komplayens şöbəsi
- İT təhlükəsizliyi şöbəsi

Sözügedən şöbələrin əsasnamələri təsdiq edilmiş, struktur və səlahiyyətlər müəyyənləşdirilmiş, müvafiq ixtisaslı əməkdaşlar təyin olunmuşdur. Şöbələr faktiki olaraq fəaliyyətə başlamış, daxili hesabatlılıq və koordinasiya mexanizmləri qurulmuş, həmçinin proses və prosedurlar üzrə ilkin icra planları təsbit edilmişdir. Bu addımlar korporativ idarəetmənin dayanıqlığını və operativ qərarvermə imkanlarını nəzərəçarpacaq dərəcədə artırmışdır.

## *B.2. Daxili nəzarət sistemi ilə bağlı məlumatlar*

### Daxili nəzarət sistemi

Daxili nəzarət sistemi Cəmiyyətin fəaliyyətinin dayanıqlılığını, uzunmüddətli maliyyə sabitliyini, etibarlı və şəffaf hesabatlılıq mühitini təmin edən, həmçinin sığorta fəaliyyətinin mövcud qanunvericilik tələblərinə və daxili normativ sənədlərə uyğun həyata keçirilməsinə nəzarət edən kompleks idarəetmə mexanizmidir. Bu sistem Cəmiyyətin strateji məqsədlərinə nail olunmasına dəstək verir, risklərin vaxtında müəyyən edilməsi və effektiv idarə olunmasını təmin edir, eyni zamanda aktivlərin qorunmasına və idarəetmə proseslərinin təkmilləşdirilməsinə xidmət edir.

Daxili nəzarət sisteminin əsas məqsədləri Cəmiyyətin fəaliyyətinin effektivliyinin artırılması, maliyyə və qeyri-maliyyə hesabatlarının düzgünlüyü və etibarlılığının təmin edilməsi, qanunvericilik və tənzimləyici tələblərə riayət olunması, eləcə də daxili və xarici risklərin vaxtında aşkarlanması və idarə edilməsidir. Eyni zamanda, sistem əməliyyat proseslərində mövcud zəifliklərin müəyyən edilməsinə, nəzarət mexanizmlərinin gücləndirilməsinə və Cəmiyyətin ümumi idarəetmə keyfiyyətinin yüksəldilməsinə şərait yaradır.

Cəmiyyətdə daxili nəzarət sistemi “üç müdafiə xətti” prinsipi əsasında təşkil edilmişdir. Birinci müdafiə xətti gündəlik əməliyyatların icrasına cavabdeh olan biznes və əməliyyat bölmələrindən ibarətdir və risklərin ilkin idarə olunmasını həyata keçirir. İkinci müdafiə xətti risklərin idarə edilməsi, komplayens və aktuar funksiyaları vasitəsilə daxili nəzarət mexanizmlərinin hazırlanması, monitorinq və metodoloji təminatını həyata keçirir. Üçüncü müdafiə xətti isə daxili audit funksiyasıdır və birinci və ikinci müdafiə xətlərinin fəaliyyətinin müstəqil qiymətləndirilməsini təmin edərək daxili nəzarət sisteminin effektivliyinə dair obyektiv təminat verir.

Daxili nəzarət funksiyaları Cəmiyyət daxilində təşkilati müstəqilliyə malik struktur bölmələr tərəfindən həyata keçirilir. Bu bölmələr öz vəzifə və məsuliyyətlərini bir-birindən və digər əməliyyat bölmələrindən funksional müstəqillik prinsipi əsasında icra edir. Bu yanaşma maraqların toqquşmasının qarşısını almağa, qərarvermə proseslərinin şəffaflığını artırmağa və nəzarət mühitinin gücləndirilməsinə imkan yaradır.

Ümumilikdə, daxili nəzarət sistemi Cəmiyyətin fəaliyyətində risk əsaslı idarəetmə yanaşmasını dəstəkləyən, davamlı təkmilləşmə prinsipinə əsaslanan və korporativ idarəetmənin səmərəliliyini artıran mühüm element kimi çıxış edir.

### Komplayens funksiyası

Komplayens funksiyası daxili nəzarət sisteminin mühüm tərkib hissəsi olmaqla Cəmiyyətin fəaliyyətinin qüvvədə olan qanunvericiliyə, normativ-hüquqi aktlara və daxili qaydalara uyğunluğunun təmin edilməsinə yönəlmişdir. Bu funksiya hüquqi və tənzimləyici mühitdə baş verən dəyişiklikləri mütəmadi olaraq izləyir, həmin dəyişikliklərin Cəmiyyətin fəaliyyətinə potensial təsirlərini qiymətləndirir və uyğunluq risklərinin idarə olunmasına dəstək verir.

Komplayens funksiyası risklərin idarə edilməsi sisteminin tərkib hissəsi olan ikinci müdafiə xəttinə daxildir və Cəmiyyət daxilində digər əməliyyat və icraedici struktur bölmələrdən təşkilati və funksional müstəqillik prinsipi əsasında fəaliyyət göstərir. Komplayens funksiyasını həyata keçirən struktur bölmənin fəaliyyətinə birbaşa nəzarət Cəmiyyətin Baş Komplayens İnzibatçısı tərəfindən təmin edilir.

Komplayens funksiyasının əsas vəzifələri Cəmiyyətin fəaliyyətində hüquqi və normativ tələblərə uyğunluğun təmin edilməsini, komplayens risklərinin müəyyən edilməsi, qiymətləndirilməsi, monitorinqi və idarə olunmasını əhatə edir. Bu çərçivədə funksiyanın əsas istiqamətləri aşağıdakılardır:

Komplayens riskləri ilə bağlı əhəmiyyətli pozuntular və ya risk hallarının baş verdiyi təqdirdə Direktorlar Şurasına mütəmadi və ya zərurət yarandıqda növbədənkənar hesabatların təqdim edilməsi; komplayens risklərinin idarə olunması üzrə daxili prosedur və metodologiyaların hazırlanması, tətbiqi və təkmilləşdirilməsi; qanunvericiliklə tələb olunan daxili siyasət və qaydaların inventarizasiyasının aparılması və onların uyğunluğunun yoxlanılması; zəruri hallarda Mərkəzi Banka komplayens riskləri və görülmüş tədbirlər barədə məlumatların təqdim edilməsi.

Bununla yanaşı, komplayens funksiyası əməkdaşlar üçün müvafiq təlim proqramlarının hazırlanmasını və həyata keçirilməsini təmin edir, risklərin idarə edilməsi funksiyası ilə koordinasiyalı şəkildə risk iştahası və risk siyasətlərinin icrasına nəzarətdə iştirak edir, yeni sığorta məhsulları və xidmətlərinin qanunvericiliyə uyğunluğunu qiymətləndirir və bu məhsulların tətbiqindən əvvəl müvafiq daxili rəy prosedurlarının yerinə yetirilməsinə nəzarət edir.

Komplayens funksiyası həmçinin daxili kommunikasiyanın təmin edilməsi, maraqlar toqquşmasının müəyyən edilməsi və dövri qiymətləndirilməsi, vətəndaş müraciətlərinin monitorinqi, eləcə də Cəmiyyətə və rəhbər şəxslərə tətbiq edilən sanksiyalar, məhkəmə qərarları və tənzimləyici orqanların icrası məcburi göstərişlərinin icrasına nəzarət kimi mühüm istiqamətləri əhatə edir. Bu fəaliyyətlər nəticəsində komplayens mühitinin gücləndirilməsi və Cəmiyyətin reputasiya və hüquqi risklərinin minimallaşdırılması təmin olunur.

## *B.3. Daxili audit funksiyası ilə bağlı məlumatlar*

### Daxili audit funksiyası

Daxili audit funksiyası Cəmiyyətin fəaliyyətinin dayanıqlığının, səmərəliliyinin və etibarlılığının təmin olunmasında mühüm rol oynayan üçüncü müdafiə xətti kimi fəaliyyət göstərir. Bu funksiya Direktorlar Şurasına və İdarə Heyətinə daxili nəzarət və risklərin idarə edilməsi sisteminin adekvatlığı və effektivliyi barədə müstəqil və obyektiv məlumat təqdim edir. Daxili auditin əsas məqsədi Cəmiyyətin fəaliyyətində risklərin düzgün müəyyən edilməsi, qiymətləndirilməsi və idarə olunmasının, həmçinin daxili nəzarət mexanizmlərinin işləkliyinin və dayanıqlığının təmin olunmasıdır.

Daxili audit funksiyası Cəmiyyətin bütün struktur bölmələrini sistemli yoxlama və qiymətləndirmə fəaliyyəti həyata keçirir. Bu çərçivədə əməliyyatların qanunvericiliyin tələblərinə, normativ aktlara və Cəmiyyətin daxili qayda və prosedurlarına uyğunluğu mütəmadi şəkildə təhlil olunur. Eyni zamanda, mühasibat uçotunun düzgün aparılması, maliyyə hesabatlarının etibarlılığı və şəffaflığı daxili auditin əsas yoxlama istiqamətlərindən biridir.

Daxili audit həmçinin Cəmiyyətin resurslardan istifadəsinin səmərəliliyini, xərclərin optimallaşdırılmasını və əməliyyatların iqtisadi məqsədəuyğunluğunu qiymətləndirir. Bu proseslər çərçivəsində daxili nəzarət sisteminin zəif və güclü tərəfləri müəyyən edilir, risklərin idarə olunması üzrə təkmilləşdirmə istiqamətləri formalaşdırılır. Audit yoxlamaları planlı şəkildə tərtib edilən illik audit planı əsasında həyata keçirilir və bu plan risk əsaslı yanaşma ilə hazırlanır.

Daxili audit fəaliyyəti yalnız cari yoxlamalarla məhdudlaşmır, həm də proseslərin davamlı monitorinqini və qiymətləndirilməsini əhatə edir. Bu yanaşma Cəmiyyətin fəaliyyətində potensial risklərin erkən aşkar edilməsinə və onların təsirinin minimuma endirilməsinə imkan yaradır. Audit nəticələri əsasında hazırlanan hesabatlar idarəetmə orqanlarına təqdim edilir və qərarvermə prosesində mühüm informasiya mənbəyi kimi çıxış edir.

Ümumilikdə, daxili audit funksiyası Cəmiyyətin idarəetmə sisteminin gücləndirilməsinə, risk mədəniyyətinin inkişafına və fəaliyyətin şəffaflığının artırılmasına xidmət edir. Bu funksiya Cəmiyyətin strateji məqsədlərinə nail olunmasında dəstəkverici rol oynamaqla yanaşı, onun maliyyə sabitliyinin və uzunmüddətli dayanıqlığının qorunmasına mühüm töhfə verir.

### Daxili audit funksiyasının müstəqilliyi və obyektivliyi

Daxili audit funksiyası Cəmiyyət daxilində təşkilati və funksional baxımdan müstəqil şəkildə qurulmuşdur və bu müstəqillik onun fəaliyyətinin əsas prinsiplərindən biridir. Bu müstəqillik daxili auditin əməliyyat və icraedici struktur bölmələrdən kənar fəaliyyət göstərməsini və heç bir təsirə məruz qalmamasını təmin edir. Daxili audit öz fəaliyyətini yalnız müəyyən edilmiş audit metodologiyası, peşəkar standartlar və risk əsaslı yanaşma əsasında həyata keçirir. Bu yanaşma nəticələrin obyektiv, qərəzsiz və faktlara əsaslanmış şəkildə formalaşdırılmasına imkan yaradır.

Daxili audit funksiyasının fəaliyyətinə birbaşa nəzarət Audit Komitəsi tərəfindən həyata keçirilir və bu mexanizm müstəqillik prinsipinin institusional səviyyədə qorunmasını təmin edir. Audit Komitəsi audit planlarının təsdiqi, audit nəticələrinin müzakirəsi və tövsiyələrin icrasının izlənilməsi prosesində mühüm rol oynayır. Eyni zamanda, daxili auditin hesabatlılıq xətti yalnız Direktorlar Şurasına və İdarə Heyətinə yönəldilmişdir ki, bu da ara səviyyəli müdaxilələrin qarşısını alır.

Daxili audit yoxlamaları zamanı heç bir struktur bölmənin təsirinə və ya müdaxiləsinə yol verilmir, bütün qiymətləndirmələr sərbəst və müstəqil şəkildə aparılır. Potensial maraq toqquşmalarının qarşısının alınması məqsədilə audit funksiyası idarəetmə və icra proseslərindən ayrılmış şəkildə təşkil edilmişdir. Bu yanaşma audit nəticələrinin obyektivliyini və etibarlılığını daha da gücləndirir.

Audit hesabatları yalnız faktlara əsaslanan nəticələrdən ibarət olur və subyektiv yanaşmalardan uzaq şəkildə formalaşdırılır. Nəticələr operativ bölmələrin təsirindən kənar şəkildə yüksək idarəetmə orqanlarına təqdim edilir və qərarvermə prosesində neytral informasiya mənbəyi kimi çıxış edir. Ümumilikdə, daxili audit funksiyasının müstəqilliyi və obyektivliyi Cəmiyyətin korporativ idarəetmə sisteminin şəffaflığını və dayanıqlığını təmin edən əsas amillərdəndir.

## *B.4. Aktuar funksiyası ilə bağlı məlumatlar*

### Aktuar funksiyası

Aktuar funksiyasını həyata keçirən struktur bölmə Cəmiyyətin maliyyə sabitliyinin və risklərin düzgün qiymətləndirilməsinin təmin edilməsində mühüm rol oynayır.

Bu funksiya İdarə Heyəti və Direktorlar Şurasına aktuar hesablamaların düzgünlüyü, istifadə olunan metod və fərziyyələrin adekvatlığı barədə müstəqil rəy təqdim edir. Eyni zamanda, anderraytinq şərtləri və tariflərin müəyyən edilməsi siyasəti, həmçinin təkrarsığorta əməliyyatları üzrə siyasətin qiymətləndirilməsində iştirak edir.

Aktuar funksiya risklərin kəmiyyətcə ölçülməsi və sığorta portfelinin dayanıqlığının təmin olunması üçün analitik dəstək verir.

Bu funksiya Cəmiyyətin risklərin idarə edilməsi sistemində ikinci müdafiə xəttinə daxildir və əməliyyat bölmələrindən funksional müstəqillik prinsipi əsasında fəaliyyət göstərir. Müstəqillik aktuar qiymətləndirmələrin obyektivliyini və qərarvermə prosesində qərəzsiz məlumat təmin edilməsini gücləndirir.

Aktuar funksiyanın fəaliyyəti Cəmiyyətin digər struktur bölmələrinin təsirindən kənar şəkildə təşkil olunur. Bu funksiyanın fəaliyyətinə birbaşa nəzarət Cəmiyyətin məsul aktuarisi tərəfindən həyata keçirilir ki, bu da peşəkar standartlara uyğunluğun və keyfiyyətin təmin edilməsinə xidmət edir.

## B.5. Risklərin idarə edilməsi sistemi ilə bağlı məlumatlar

### Risklərin idarə edilməsi sistemi

Cəmiyyətdə risklərin idarə edilməsi sistemi strateji və əməliyyat məqsədlərinin dayanıqlılığını təmin etmək üçün risklərin sistemli şəkildə müəyyən edilməsi, qiymətləndirilməsi, monitorinqi və idarə olunmasını əhatə edir. Cəmiyyətin fəaliyyətində əsasən sığorta (anderraytinq), bazar, kredit, likvidlik, əməliyyat, strateji və reputasiya riskləri müəyyən edilir və bu risklər inteqrasiya olunmuş risk idarəetmə çərçivəsində idarə olunur.

Risklərin idarə edilməsi prosesi risklərin identifikasiyası, ölçülməsi, qiymətləndirilməsi, monitorinqi və müvafiq azaldıcı tədbirlərin həyata keçirilməsi mərhələlərindən ibarətdir. Bu proses çərçivəsində risk limitləri müəyyən edilir, erkən xəbərdarlıq indikatorları tətbiq olunur və mütəmadi hesabatlılıq təmin edilir.

Risklərə nəzarət mexanizmləri risk limitlərinin monitorinqi, daxili nəzarət prosedurları, risk modelləri və dövri stres-testlərin aparılması vasitəsilə həyata keçirilir. Risklərin idarə edilməsi funksiyası Cəmiyyətin ikinci müdafiə xəttinə daxildir və digər struktur bölmələrdən müstəqil şəkildə fəaliyyət göstərir. Funksiyanın əsas məqsədi Cəmiyyətin ümumi risk profilini nəzarətdə saxlamaq və strateji qərarların qəbuluna dəstək verməkdir.

### Risklərin idarə edilməsinin struktur və qərarverməyə inteqrasiyası

Risklərin idarə edilməsi sistemi Cəmiyyətin təşkilati strukturuna inteqrasiya olunmuş şəkildə fəaliyyət göstərir və idarəetmənin bütün səviyyələrində qərar qəbuletmə proseslərini dəstəkləyir. Bu sistem Direktorlar Şurası, İdarə Heyəti və risklərin idarə olunmasına cavabdeh struktur bölmələr arasında koordinasiyalı şəkildə işləyir.

Risklərin idarə edilməsi funksiyası ikinci müdafiə xətti olaraq fəaliyyət göstərir və birbaşa Baş Risk İnzibatçısına tabedir. Bu yanaşma funksiyanın müstəqilliyini təmin etməklə yanaşı, risklərin obyektiv qiymətləndirilməsinə və effektiv nəzarətinə imkan yaradır.

Qərar qəbuletmə proseslərində risk məlumatları strateji planlaşdırma, investisiya qərarları, böyük layihələr və ümumi biznes əməliyyatlarının qiymətləndirilməsi zamanı istifadə olunur. Eyni zamanda risk iştahası, limitlər və siyasətlər üzrə məlumatlar

mütəmadi olaraq rəhbərliyə təqdim edilir və qərarların risk əsaslı şəkildə qəbul edilməsinə dəstək verir.

## *B.6. Autsorsinq ilə bağlı məlumatlar*

Cəmiyyət autsorsinq fəaliyyəti üzrə təsdiq edilmiş siyasət çərçivəsində üçüncü tərəf xidmət təminatçıları ilə əməkdaşlıq edir. Autsorsinq əsasən İT xidmətləri, informasiya təhlükəsizliyi və digər ixtisaslaşmış texniki xidmət sahələrini əhatə edir. Xarici xidmət təminatçılarının seçimi zamanı onların maliyyə dayanıqlığı, peşəkar təcrübəsi, reputasiyası və xidmət keyfiyyəti nəzərə alınır. Autsorsinq münasibətləri üzrə müqavilələrdə məxfilik, məlumatların qorunması, xidmət səviyyəsi və audit hüquqları ilə bağlı müddəalar əks etdirilir. Həmin fəaliyyətlər üzrə risklər mütəmadi qiymətləndirilir, monitorinq və nəzarət tədbirləri həyata keçirilir. Cəmiyyət autsorsinq fəaliyyətinin qanunvericiliyə və daxili siyasətlərə uyğunluğunu davamlı olaraq nəzərdən keçirir.

Cəmiyyət autsorsinq fəaliyyəti çərçivəsində iki xarici xidmət təminatçısı ilə əməkdaşlıq edir. Bunlardan biri İT xidmətlərinin göstərilməsi, digər isə informasiya təhlükəsizliyi üzrə xidmətlərin təmin edilməsi məqsədilə cəlb edilmişdir. Həmin subyektlər tərəfindən təqdim olunan xidmətlər Cəmiyyətin əməliyyat fəaliyyətinin fasiləsizliyinin, informasiya sistemlərinin dayanıqlığının və kibertəhlükəsizlik tələblərinə uyğunluğun təmin edilməsinə yönəlmişdir. Autsorsinq münasibətləri üzrə fəaliyyətlər müvafiq müqavilələr əsasında həyata keçirilir və xidmət təminatçılarının fəaliyyəti mütəmadi monitorinq olunur.

### **Autsorsinqə cəlb olunan subyektlərin siyahısı**

1. «SOFTLANDIA» MMC
    - informasiya təhlükəsizliyinin təmin edilməsi və bu istiqamətdə xidmətlər
    - bütün server, şəbəkə və informasiya təhlükəsizliyi sistemlərinə gündəlik nəzarət və çatışmazlıqların aradan qaldırılması;
    - AR Mərkəzi Bankının 28.03.2024 tarixli 14/2 saylı Qərarı ilə təsdiq edilmiş "Maliyyə bazarlarında fəaliyyətinə nəzarət edilən subyektlərdə informasiya təhlükəsizliyinin təmin edilməsinə dair Tələblər" üzrə tədbirlərin icrası:
    - autentikasiya idarəetməsi, fiziki təhlükəsizlik nəzarəti, kritik İT sistemlərin davamlılığı və bərpa planlarının hazırlanması.
2. «Setclapp» MMC
    - İnformasiya texnologiyalarına aid texniki dəstək,
    - Server və kompüterlərin quraşdırılması və dəstəyi
    - Gündəlik yardım: nasazlıqların aradan qaldırılması, yeniləmələr, profilaktika
    - Şəbəkənin qurulması və idarəsi (internet, daxili bağlantı, Wi-Fi)
    - İstifadəçilərə uzaqdan və yerində kömək
    - Avadanlıq və proqramların quraşdırılması və izlənməsi

- Domen və email xidmətləri
- Ehtiyat nüsxələr və bərpa planlarının icrası
- Digər İT ilə bağlı məsələlər

## *B.7. Digər əhəmiyyətli məlumatlar*

Hesabat dövrü ərzində korporativ idarəetməsi ilə bağlı hər hansı digər əhəmiyyətli dəyişiklik İdarə Heyətinin tərkibi ilə bağlı olmuş, 2025-ci ildə bir üzvün vəzifəsindən ayrılması nəticəsində heyətin fəaliyyəti müvəqqəti olaraq 4 nəfərlə davam etdirilmişdir. Bu kadr dəyişikliyi qüvvədə olan qanunvericiliyin və standartların idarəetmə orqanlarında üzv sayının tək rəqəmdən ibarət olması tələbi ilə müəyyən struktur fərqliliyi yaratmışdır və idarəetmə sisteminin tam qanunauyğun formalaşdırılması məqsədilə heyətin yenidən təşkil edilməsi qərara alınmışdır. Cari ildən etibarən zəruri tədbirlər yekunlaşdırılaraq İdarə Heyətinin üzv sayının müvafiq hüquqi tələblərə uyğun olaraq tək sayda olması tam təmin ediləcəkdir.

# C. Aktivlərin və öhdəliklərin təsnifatı

## C.1. Aktivlər

### Aktivlərin təsnifatları barədə məlumatlar

(manatla)

| Aktivlər | Hesabat dövrü: 01.01.2026 | Hesabat dövrü: 01.01.2025 | Fərq |
|---|---|---|---|
| **Pul vəsaitləri və onların ekvivalentləri, o cümlədən :** | **2 112 555** | **3 655 662** | **-1 543 108** |
| Milli valyutada olan hesabdakı vəsaitlər | 473 250 | 520 112 | -46 862 |
| Xarici valyutada olan hesabdakı vəsaitlər | 1 627 213 | 3 126 348 | -1 499 135 |
| Sair pul vəsaitləri | 12 092 | 9 203 | 2 890 |
| **İnvestisiya aktivləri, o cümlədən :** | **136 596 421** | **108 316 466** | **28 279 955** |
| İstiqrazlar | 110 390 176 | 98 269 325 | 12 120 850 |
| İştirak payı metodu ilə uçota alınmış investisiyalar | | | |
| Səhmlər | 13 106 245 | 9 797 141 | 3 309 104 |
| İnvestisiya fondlarına yerləşdirilmiş aktivlər | | | |
| Törəmə maliyyə alətləri | 0 | 0 | 0 |
| Daşınmaz əmlak (öz istifadəçi üçün olmayan) | 0 | 0 | 0 |
| Depozitlər | 13 100 000 | 250 000 | 12 850 000 |
| Digər investisiya aktivləri | **13 760 043** | **0** | **13 760 043** |
| **Debitor borclar, o cümlədən :** | **41 436 343** | **42 154 426** | **-718 083** |
| Birbaşa sığorta üzrə | | | |
| Təkrarsığorta əməliyyatları üzrə | 37 666 449 | 30 057 205 | 7 609 244 |
| Sığorta vasitəçiləri üzrə | | | |
| Sair debitorlar | 3 769 894 | 12 097 220 | -8 327 327 |
| **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı, o cümlədən :** | **7 816 015** | **13 754 415** | **-5 938 400** |
| Həyat sığortası sahəsi üzrə | 60 029 | 55 327 | 4 702 |
| Qeyri-həyat sığortası sahəsi üzrə | 7 755 986 | 13 699 088 | -5 943 102 |
| **Torpaq,tikili və avadanlıqlar (öz istifadəçi üçün olan)** | **382 445** | **419 248** | **-36 803** |
| **Qeyri maddi aktivlər** | **328 425** | **146 916** | **181 509** |
| **Təxirə salınmış vergi aktivləri** | | | |
| **Digər aktivlər** | | **0** | **0** |
| | | | |
| **Cəmi** | **202 432 248** | **168 447 134** | **33 985 114** |

01.01.2026-cı il  hesabat dovru üzrə aktivlərin strukturunun təhlili göstərir ki, şirkət hesabat dövründə maliyyə resurslarını genişləndirməyə və aktiv bazasını daha da gücləndirməyə nail olmuşdur. Ümumi aktivlər əvvəlki illə müqayisədə 33.98 milyon manata yaxın artaraq 202,43 milyon manat təşkil etmişdir. Aktivlərin artım dinamikası şirkətin bazardakı fəaliyyət həcminin və maliyyə imkanlarının genişləndiyini göstərən əsas göstəricilərdən biridir.

Hesabat dövründə artım əsasən investisiya aktivləri hesabına formalaşmışdır. İnvestisiya aktivləri 28,27 milyon manat artaraq 136,59 milyon manata çatmışdır. Xüsusilə istiqrazlar, səhmlər və depozitlər üzrə qeydə alınan artım şirkətin sərbəst vəsaitlərini daha səmərəli

və gəlirlilik potensialı yüksək olan maliyyə alətlərinə yönəltdiyini göstərir. Bununla yanaşı, digər investisiya aktivləri üzrə artım investisiya portfelinin daha diversifikasiya olunmuş şəkildə formalaşdırıldığını nümayiş etdirir.

Pul vəsaitləri və onların ekvivalentləri 01.01.2026-cı il hesabat dövründə 2,11 milyon manat təşkil etmişdir. Milli valyutada olan hesab vəsaitlərində nisbətən məhdud dəyişiklik müşahidə olunmuş, xarici valyutada yerləşdirilmiş vəsaitlərdə isə azalma qeydə alınmışdır. Bununla yanaşı, vəsaitlərin bir hissəsinin investisiya alətlərinə yönləndirilməsi aktivlərin daha səmərəli idarə olunmasına və gəlirlilik potensialının artırılmasına xidmət edən yanaşma kimi qiymətləndirilə bilər.

Hesabat dövründə ümumi debitor borclarında azalma müşahidə olunsa da, təkrarsığorta əməliyyatları üzrə debitor borclarında artım qeydə alınmışdır. Bu artım əvvəlki illə müqayisədə biznes həcminin əhəmiyyətli dərəcədə böyüməsi ilə əlaqədar olmuşdur.

Ümumilikdə, hesabat dövrü ərzində aktivlərin artımı, investisiya portfelinin genişlənməsi və aktiv strukturunun optimallaşdırılması şirkətin maliyyə dayanıqlığını qoruduğunu və gələcək inkişaf üçün möhkəm maliyyə bazası formalaşdırdığını göstərir.

## C.2. Öhdəliklər

**Öhdəliklərin təsnifatları barədə məlumatlar**

(manatla)

| Öhdəliklər | Hesabat dövrü: 01.01.2026 | Hesabat dövrü: 01.01.2025 | Fərq |
|---|---|---|---|
| **Sığorta ehtiyatları, o cümlədən :** | **86 022 944** | **63 849 852** | **22 173 092** |
| Həyat sığortası sahəsi üzrə | 653 120 | 486 188 | 166 932 |
| Qeyri-həyat sığortası sahəsi üzrə | 85 369 824 | 63 363 664 | 22 006 159 |
| **Faiz xərcləri yaradan öhdəliklər, o cümlədən :** | | | |
| Bank kreditləri üzrə | | | |
| Qiymətli kağızlar üzrə | | | |
| Digər faiz xərci yaradan öhdəliklər | | | |
| **Kreditor borcları, o cümlədən :** | **7 301 151** | **12 298 325** | **-4 997 174** |
| Birbaşa sığorta üzrə | | | |
| Təkrarsığorta əməliyyatları üzrə | 5 056 231 | 9 645 552 | -4 589 322 |
| Sığorta vasitəçiləri üzrə | | | |
| Sair kreditorlar | 2 244 920 | 2 652 773 | -407 852 |
| **Törəmə maliyyə alətlərindən yaranan öhdəliklər** | | | |
| **Digər öhdəliklər** | **1 706 931** | **1 418 845** | **288 085** |
| | | | |
| **Cəmi** | **95 031 026** | **77 567 023** | **17 464 003** |

01.01.2026-cı il hesabat dövrü üzrə öhdəliklərin strukturunun təhlili göstərir ki, şirkət fəaliyyət həcminin genişlənməsi fonunda öhdəliklərini idarə olunan və dayanıqlı səviyyədə qoruyub saxlamışdır. Ümumi öhdəliklər əvvəlki illə müqayisədə 17,46 milyon

manat artaraq 95 milyon manat təşkil etmişdir. Bu artım əsasən sığorta ehtiyatlarının yüksəlməsi ilə bağlı olmuşdur ki, bu da şirkətin gələcək öhdəliklər üzrə daha ehtiyatlı və dayanıqlı yanaşma tətbiq etdiyini göstərir.

Sığorta ehtiyatları 22,17 milyon manat artaraq 86 milyon manata çatmışdır. Artım əsasən qeyri-həyat sığortası sahəsi üzrə formalaşmışdır və bu, şirkətin sığorta portfelinin genişlənməsi ilə izah olunur.  Artımın 13.3 milyonu isə zərərlər ehtiyatının, 6.7 milyonu qazanılmamış sığorta ehtiyatlarının artması hesabına olmuşdur. Həyat sığortası üzrə ehtiyatlarda da müsbət artım müşahidə olunmuşdur.

Bununla yanaşı, kreditor borclarında azalma qeydə alınmışdır. Kreditor borcları əvvəlki illə müqayisədə 4.99 milyon manata yaxın azalaraq 7,3 milyon manat təşkil etmişdir. Xüsusilə təkrarsığorta əməliyyatları üzrə borcların azalması şirkətin qarşılıqlı hesablaşmalar üzrə öhdəliklərini daha effektiv idarə etdiyini göstərir. Digər kreditor borclarında müşahidə olunan azalma da maliyyə intizamının qorunduğunu nümayiş etdirir.

Ümumilikdə, öhdəliklərin strukturunda müşahidə olunan dəyişikliklər şirkətin fəaliyyət genişlənməsi ilə paralel olaraq maliyyə dayanıqlığını və risk idarəetməsini balanslı şəkildə davam etdirilir.

## C.3. Sığorta ehtiyatları

### Qeyri-həyat sahəsi üzrə ümumi sığorta ehtiyatlarının təsnifatı barədə məlumatlar

(manatla)

| Sığorta ehtiyatları | Hesabat dövrü: | Hesabat dövrü: | Fərq |
|---|---|---|---|
| Qazanılmamış sığorta haqları ehtiyatı | 37 237 768 | 30 531 181 | 6 706 587 |
| Zərərlər ehtiyatı | 44 864 712 | 31 520 515 | 13 344 198 |
| Digər sığorta ehtiyarları | 3 267 344 | 1 311 969 | 1 955 375 |
| | | | |
| **Cəmi** | **85 369 824** | **63 363 664** | **22 006 159** |

(manatla)

| Sığorta sinifləri üzrə | Hesabat dövrü: 01.01.2026 | | Hesabat dövrü: 01.01.2025 | | Fərq | |
|---|---|---|---|---|---|---|
| | Sığorta ehtiyatları | Xalis sığorta ehtiyatları (təkrarsığortaçıların payı çıxılmaqla) | Sığorta ehtiyatları | Xalis sığorta ehtiyatları (təkrarsığortaçıların payı çıxılmaqla) | Sığorta ehtiyatları | Xalis sığorta ehtiyatları (təkrarsığortaçıların payı çıxılmaqla) |
| **Əsas sığorta sinifləri** | **70 209 867** | **64 163 632** | **53 782 875** | **41 713 692** | **16 426 992** | **22 449 940** |
| Əmlakın yanğından və digər risklərdən sığortası | 49 235 134 | 45 160 339 | 42 508 846 | 32 849 833 | 6 726 288 | 12 310 505 |
| Kənd təsərrüfatı bitkiləri məhsullarının sığortası | 6 288 439 | 6 246 411 | 2 841 869 | 2 822 368 | 3 446 570 | 3 424 043 |
| Ümumi mülki məsuliyyətin sığortası | 6 679 579 | 6 323 909 | 771 367 | 444 777 | 5 908 212 | 5 879 132 |
| Kənd təsərrüfatı heyvanlarının sığortası | 4 037 182 | 3 753 541 | 3 586 982 | 3 303 341 | 450 199 | 450 199 |
| Daşınmaz əmlakın icbari sığortası | 3 969 534 | 2 679 433 | 4 073 811 | 2 293 372 | -104 277 | 386 061 |
| **Digər sığorta sinifləri** | **15 159 956** | **13 450 205** | **9 580 789** | **7 950 884** | **5 579 167** | **5 499 321** |
| | | | | | | |
| **Cəmi** | **85 369 824** | **77 613 837** | **63 363 664** | **49 664 576** | **22 006 159** | **27 949 261** |

2026-cı ilin 01 yanvar tarixinə olan qeyri-həyat sahəsi üzrə sığorta ehtiyatları üzrə göstəricilər şirkətin sığorta portfeli və beynəlxalq təkrarsığorta fəaliyyəti üzrə artım dinamikasının davam etdiyini göstərir. Belə ki, hesabat dövründə bu sahə üzrə cəmi sığorta ehtiyatları 63.36 milyon manatdan 85.37 milyon manata yüksələrək 22.01 milyon manat və ya 34.7% artmışdır. Bu artım əsasən beynəlxalq bazarda fəaliyyət həcminin genişlənməsi, yazılan təkrarsığorta haqlarının artması, saxlanılan risk payının yüksəlməsi və zərər gözləntilərinin böyüməsi ilə əlaqədar olmuşdur.

Hesabat dövründə qeyri-həyat sahəsi üzrə qazanılmamış sığorta haqları ehtiyatı 30.53 mln manatdan 37.24 mln manata yüksələrək 6.71 mln manat və ya 22% artıb. Artımın başlıca səbəbi beynəlxalq bazarlardan portfelə daxil edilən yeni müqavilələr nəticəsində yazılan təkrarsığorta haqlarının əhəmiyyətli şəkildə çoxalmasıdır.

Qeyri-həyat sahəsi zərərlər ehtiyatı üzrə də əhəmiyyətli artım müşahidə olunmuşdur. Göstərici 31.52 milyon manatdan 44.86 milyon manata yüksələrək 13.34 milyon manat və ya 42.3% artmışdır. Bu dinamika yeni əlavə olunan portfellərdə yaranan zərərlər, mövcud portfellərin həcminin böyüməsi, eləcə də zərər tezliyi və zərər məbləğlərinin artması ilə izah olunur.

Qeyri-həyat sahəsi üzrə digər sığorta ehtiyatları (sabitləşdirici, katastrofik) hesabat dövründə 1.31 milyon manatdan 3.27 milyon manata yüksələrək 1.96 milyon manat və ya 149% artım nümayiş etdirmişdir.

Sığorta sinifləri üzrə təhlil göstərir ki, əsas artım əmlakın yanğından və digər risklərdən sığortası sinfində müşahidə olunmuşdur. Bu sinif üzrə sığorta ehtiyatları 42.51 milyon manatdan 49.24 milyon manata yüksələrək 6.72 milyon manat artmışdır ki, bu da portfel həcminin və qəbul edilən risklərin genişlənməsi ilə əlaqədardır.

Kənd təsərrüfatı bitkiləri məhsullarının sığortası üzrə ehtiyatlar hesabat dövründə 2.84 milyon manatdan 6.29 milyon manata yüksələrək 3.45 milyon manat artım göstərmişdir. Artım əsasən hesabat dövründə baş vermiş sığorta hadisələri, xüsusilə donvurma riskləri üzrə qeydə alınmış zərərlər səbəbindən müvafiq ehtiyatların artırılması ilə bağlı olmuşdur.

Ümumi mülki məsuliyyətin sığortası sinfi üzrə də əhəmiyyətli dinamika müşahidə edilmişdir. Bu sinif üzrə ehtiyatlar 771 min manatdan 6.68 milyon manata yüksələrək 5.91 milyon manat artmışdır ki, bu da bu sinif üzrə yeni beynəlxalq müqavilələrin portfelə daxil edilməsi ilə izah olunur.

Digər sığorta sinifləri üzrə ehtiyatlar isə 9.58 milyon manatdan 15.16 milyon manata yüksələrək 5.58 milyon manat artmışdır. Ümumilikdə, siniflər üzrə müşahidə olunan artım şirkətin beynəlxalq bazarda fəaliyyətinin genişlənməsi, yeni biznes axınının artması və sığorta portfelinin diversifikasiyası ilə əlaqədar olmuşdur.

Nəticə etibarilə, hesabat dövründə qeyri-həyat sahəsi üzrə sığorta ehtiyatlarında müşahidə olunan artım şirkətin beynəlxalq təkrarsığorta portfelinin genişlənməsi, risk ekspozisiyasının yüksəlməsi və zərər gözləntilərinin artması fonunda ehtiyatlanma səviyyəsinin gücləndirildiyini göstərir.

### Həyat sahəsi üzrə ümumi sığorta ehtiyatlarının təsnifatı barədə məlumatlar

(manatla)

| Sığorta ehtiyatları | Hesabat dövrü: 01.01.2026 | Hesabat dövrü: 01.01.2025 | Fərq |
|---|---|---|---|
| Riyazi ehtiyatlar | 386 897 | 257 481 | 129 416 |
| Zərərlər ehtiyatı | 257 943 | 226 090 | 31 852 |
| Digər sığorta ehtiyarları | 8 281 | 2 616 | 5 664 |
| | | | |
| **Cəmi** | **653 120** | **486 188** | **166 932** |

| Sığorta sinifləri üzrə | Hesabat dövrü: 01.01.2026 | | Hesabat dövrü: 01.01.2025 | | Fərq | |
|---|---|---|---|---|---|---|
| | Sığorta ehtiyatları | Xalis sığorta ehtiyatları (təkrarsığortaçıların payı çıxılmaqla) | Sığorta ehtiyatları | Xalis sığorta ehtiyatları (təkrarsığortaçıların payı çıxılmaqla) | Sığorta ehtiyatları | Xalis sığorta ehtiyatları (təkrarsığortaçıların payı çıxılmaqla) |
| **Əsas sığorta sinifləri** | **290 183** | **290 183** | **212 370** | **212 370** | **77 813** | **77 813** |
| həyatın ölüm halından sığortası | 290 183 | 290 183 | 212 370 | 212 370 | 77 813 | 77 813 |
| həyatın yaşam sığortası | | | | | | |
| annuitet sığortası | | | | | | |
| əmək qabiliyyətinin sığortası | | | | | | |
| sağalmaz xəstəliklərdən sığorta | | | | | | |
| **Digər sığorta sinifləri** | **362 937** | **302 908** | **273 818** | **218 491** | **89 119** | **84 417** |
| | | | | | | |
| **Cəmi** | **653 120** | **593 091** | **486 188** | **430 861** | **166 932** | **162 230** |

Hesabat dövründə həyat sahəsi üzrə cəmi sığorta ehtiyatları 486.19 min manatdan 653.12 min manata yüksələrək 166.93 min manat və ya 34.3% artım göstərmişdir. Artım əsasən riyazi ehtiyatların 257.48 min manatdan 386.90 min manata yüksəlməsi ilə bağlı olmuş və bu göstərici üzrə 129.42 min manat artım qeydə alınmışdır. Zərərlər ehtiyatı 31.85 min manat, digər sığorta ehtiyatları isə 5.66 min manat artmışdır.

Ümumilikdə, hesabat dövründə həyat sahəsi üzrə sığorta ehtiyatlarının artımı həyat sığortası portfelləri üzrə daxilolmaların və zərər tələblərinin artması fonunda ehtiyatlanma səviyyəsinin yüksəldiyini göstərir.

## *C.4. Digər əhəmiyyətli məlumatları*

Hesabat dövründə sığortaçının aktiv və öhdəlikləri ilə bağlı ayrıca açıqlanmalı digər əhəmiyyətli məlumatlar mövcud olmamışdır.

# D. Kapitalın idarə edilməsi

## D.1. Balans kapitalı

**Balans kapitalının təsnifatı barədə məlumatlar**

(manatla)

| Kapital | Hesabat dövrü: 01.01.2026 | Hesabat dövrü: 01.01.2025 | Fərq |
|---|---|---|---|
| **Ödənilmiş nominal (nizamnamə) kapital** | **50 000 000** | **50 000 000** | **0** |
| **Emissiya gəliri** | 0 | 0 | 0 |
| **Geri alınmış kapital (səhmlər)** | **0** | **0** | **0** |
| **Kapital ehtiyatları, o cümlədən :** | | | ***0*** |
| Yenidən qiymətləndirmə üzrə ehtiyat | 0 | 0 | 0 |
| Digər kapital ehtiyatları | 6 512 438 | 3 203 333 | 3 309 104 |
| **Bölüşdürməmiş mənfəət (ödənilməmiş zərər)** | **50 888 784** | **37 676 778** | **13 212 007** |
| | | | |
| **Cəmi** | **107 401 222** | **90 880 111** | **16 521 111** |

01.01.2026-cı il hesabat dövrü üzrə balans kapitalının təhlili göstərir ki, şirkət hesabat dövründə kapital bazasını daha da gücləndirmiş və maliyyə dayanıqlığını qoruyub saxlamışdır. Ümumi kapital əvvəlki illə müqayisədə 16,52 milyon manat artaraq 107,4 milyon manat təşkil etmişdir. Kapitalın artım dinamikası şirkətin maliyyə sabitliyinin möhkəmləndiyini və fəaliyyət nəticələrinin kapital strukturuna müsbət təsir göstərdiyini nümayiş etdirir.

Nizamnamə kapitalı hesabat dövründə dəyişməyərək 50 milyon manat səviyyəsində qalmışdır. Bu isə şirkətin stabil və etibarlı kapital strukturunu qoruduğunu göstərir. Eyni zamanda, əlavə kapital cəlb edilmədən daxili maliyyə resursları hesabına kapitalın güclənməsi şirkətin maliyyə idarəetməsinin effektivliyini əks etdirir.

Digər kapital ehtiyatları əvvəlki illə müqayisədə 3,3 milyon manat artaraq 6,5 milyon manat təşkil etmişdir. Sözügedən artım cəmiyyətin investisiya portfelində yer alan «Azər-Türk Bank» ASC-nin kapitalının bölüşdürülməmiş mənfəət hesabına artması və bununla bağlı investisiyanın yenidən qiymətləndirilməsi ilə əlaqədardır.

Bölüşdürülməmiş mənfəət isə 50,88 milyon manata yüksəlmiş və əvvəlki illə müqayisədə 13,21 milyon manat artmışdır. Bu dinamika şirkətin fəaliyyət nəticələrinin kapital bazasına müsbət töhfə verdiyini və əldə olunan mənfəətin gələcək inkişaf və maliyyə dayanıqlığının gücləndirilməsi istiqamətində saxlanıldığını göstərir.

Ümumilikdə, balans kapitalının strukturunda müşahidə olunan müsbət dəyişikliklər şirkətin maliyyə sabitliyinin qorunduğunu, öhdəlikləri qarşılamaq imkanlarının genişləndiyini və gələcək fəaliyyət üçün güclü kapital bazasının formalaşdığını nümayiş etdirir.

## *D.2. Məcmu kapital, tələb olunan kapital, ödəmə qabiliyyətinin tələb olunan səviyyəsi*

*5.2. Hesabatda bu Standartların 14 nömrəli Əlavəsində nəzərdə tutulmuş formada sığortaçının məcmu kapitalı, tələb olunan kapitalı, o cümlədən ödəmə qabiliyyətinin tələb olunan səviyyəsi və tələb olunan kapitalın minimum məbləği, həmçinin kapital buferinin məbləği bir il əvvəlki hesabat tarixi ilə müqayisəli şəkildə göstərilməlidir.*

**Kapital normativləri barədə məlumatlar**

(manatla)

| Kapital | Hesabat dövrü: 01.01.2026 | Hesabat dövrü: 01.01.2025 | Fərq |
|---|---|---|---|
| **Məcmu kapital** | **67 555 576** | **61 986 447** | **5 569 129** |
| **Tələb olunan kapital, o cümlədən :** | **21 168 235** | **21 168 235** | **0** |
| Tələb olunan kapitalın ümumi məbləği | 21 168 235 | 21 168 235 | 0 |
| Ödəmə qabiliyyətinin tələb olunan səviyyəsi | 11 190 989 | 11 187 140 | 3 849 |
| **Kapital buferi** | **46 387 341** | **40 818 212** | **5 569 129** |

Kapital adekvatlığı göstəricilərinin təhlili göstərir ki, şirkət 01.01.2026-cı il hesabat dövründə kapital mövqeyini daha da gücləndirmiş və prudensial tələblər üzrə dayanıqlı maliyyə göstəricilərini qoruyub saxlamışdır. Məcmu kapital əvvəlki illə müqayisədə 5,56 milyon manat artaraq 67,55 milyon manat təşkil etmişdir ki, bu da şirkətin maliyyə sabitliyinin möhkəmləndiyini nümayiş etdirir.

Hesabat dövründə tələb olunan kapitalın həcmi dəyişməyərək 21,16 milyon manat səviyyəsində qalmışdır. Eyni zamanda, ödəmə qabiliyyətinin tələb olunan səviyyəsi üzrə göstəricinin stabil qalması şirkətin risklərini nəzarət altında idarə etdiyini və mövcud kapital bazasının fəaliyyət həcminə uyğun olduğunu göstərir.

Kapital buferi isə 46,38 milyon manata yüksələrək əvvəlki illə müqayisədə 5,56 milyon manat artmışdır. Bu dinamika şirkətin prudensial normalardan əhəmiyyətli həcmdə artıq kapital ehtiyatına malik olduğunu, gözlənilməz risklərə qarşı maliyyə davamlılığını qoruduğunu və gələcək inkişaf potensialını dəstəklədiyini göstərir.

Ümumilikdə, kapital adekvatlığı göstəriciləri şirkətin maliyyə dayanıqlığının yüksək səviyyədə olduğunu və öhdəliklərini etibarlı şəkildə qarşılamaq imkanlarının geniş olduğunu təsdiq edir.

01.01.2026 tarixinə sığortaçının tələb olunan kapitalı əhəmiyyətli marja ilə üstələyən güclü kapital mövqeyi, sabit prudensial göstəricilər və güclənmiş kapital buferi sayəsində riskə dayanıqlığı və ödəmə qabiliyyəti etibarlı şəkildə təmin olunmuşdur.

## *D.3. Digər əhəmiyyətli məlumatlar*

Hesabat dövründə kapitalın idarə edilməsinə dair əlavə əhəmiyyətli məlumatlar mövcud olmamışdır.

# F. Əlavə məlumatlar

Cəmiyyət 2024-cü ildən etibarən Solvency II çərçivəsinə uyğun daxili modeli formalaşdıraraq onu əməliyyat mühitinə tətbiq etmişdir. Bu model risk iştahası bəyannaməsinə inteqrasiya olunmuş və nəticə etibarilə minimum 220% Solvency II səviyyəsinin hədəf kimi müəyyənləşdirilməsi təmin edilmişdir. Belə yanaşma risklərin idarə olunması ilə strateji və əməliyyat qərarları arasında birbaşa əlaqə yaradaraq idarəetmə proseslərinin daha çevik və effektiv olmasına şərait yaratmışdır.

2025-ci ilin sonuna olan nəticələrə əsasən, Cəmiyyətin Solvency II əmsalı 235.3% səviyyəsində formalaşmışdır ki, bu da müəyyən edilmiş daxili hədəfi və prudensial tələbləri əhəmiyyətli marja ilə üstələdiyini göstərir. Eyni tarixə SCR (tələb olunan kapital) 45.64 milyon manat, mövcud kapital isə 107.40 milyon manat təşkil etmişdir. Bu göstəricilər şirkətin kapital dayanıqlığının yüksək olduğunu və potensial risklərə qarşı kifayət qədər buferə malik olduğunu təsdiqləyir.

Risklərin strukturu baxımından ən böyük pay qeyri-həyat sığorta anderraytinq riskinə aiddir və bu komponent əsas risk sürücüsü kimi çıxış edir. Ondan sonra gələn bazar riski şirkətin qarşılaşdığı ikinci ən iri risk kateqoriyasıdır. Əməliyyat riski və qarşı tərəf defolt riski isə portfeldə daha kiçik həcmlərlə formalaşmışdır. Bu bölgü risk profilinin əsasən anderraytinq yönümlü olduğunu, eyni zamanda risklərin müəyyən dərəcədə diversifikasiya edildiyini göstərir.

Ümumilikdə, əldə olunan nəticələr Cəmiyyətin kapital adekvatlığının yüksək səviyyədə olduğunu və prudensial çərçivə daxilində güclü dayanıqlıq sərgilədiyini təsdiqləyir. Eyni zamanda, Solvency II prinsiplərinin kapitalın bölüşdürülməsi, təkrarsığorta strategiyası, aktiv–passiv idarəetməsi və investisiya limitlərinin müəyyənləşdirilməsi proseslərinə sistemli şəkildə inteqrasiya olunması qərarvermə keyfiyyətini daha da gücləndirmişdir.

Nəticə etibarilə, Solvency II çərçivəsinin daxili model vasitəsilə risk iştahası və əsas idarəetmə qərarlarına inteqrasiya olunması Cəmiyyətin kapital adekvatlığını gücləndirmiş, dayanıqlı solvency göstəricisi formalaşdırmış və risklərin effektiv idarə olunması ilə strateji qərarvermə arasında davamlı və sistemli əlaqəni təmin etmişdir.

| **Hesabatın yerləşdirildiyi tarix:** | **26.05.2026** |
|---|---|

| **Sorğuların cavablandırılmasına məsul şəxs:** | |
|---|---|
| Soyadı, adı: | Əliyev Orxan |
| Telefon nömrəsi: | (+994 12) 404 50 51 (Ext 1523) |
| Elektron poçt ünvanı: | oaliyev@azre.az |

İdarə Heyətinin Sədri: ***Abbasov Vüsal Ramiz oğlu***

Baş Maliyyə İnzibatçısı: ***Əfəndiyeva Lalə Əli Heydərovna***